www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 aprel 2018-ci il Bazar ertəsi № 87 (6976) Qiymәti 60 qәpik

**Xəbər**

**Bakı metrosunda dəhşət: gənc qadın faciəvi şəkildə öldü**

yazısı səh.13-də

**Gündəm**

**Novruz Məmmədovun baş nazir təyinatında Qarabağ faktoru**



**"Danışmağı sevən adam"ın yeni missiyası:** Ermənistanı danışıqlarda baş nazir təmsil edəcəksə, Azərbaycan da...

yazısı səh.3-də

# PREZİDENT HÖKUMƏTİ DƏYİŞDİ, BİR ÇOX KRESLO SAHİBSİZ QALDI - əsas səbəb...

Struktur və kadr islahatları cəmiyyətdə ciddi müzakirələrə səbəb oldu və rəğbətlə qarşılandı; ekspertlər prosesin davamlı olacağını bildirirlər...




yazısı səh.4-də

**Azərbaycan prezidentinin seçkisonrası Türkiyə səfərində əsas hədəf**

yazısı səh.8-də

**Abutalıbovun yerinə daha bir namizəd - iddia**

yazısı səh.6-da

**Qızları zorladığı deyilən falçı azadlığa çıxdı və "Yeni Müsavat"a danışdı: "Özümü öldürmək istəyirdim..."**

yazısı səh.10-da

**Qarabağ üçün yeni dönəm - zaman müharibəyə işləyir**

yazısı səh.11-də

**Ekspertdən xəbərdarlıq: "Bəzi məhsullarda qıtlıq ola bilər"**

yazısı səh.13-də

*Qabil Hüseynli:*

**"Kəmfürsət Tramp "soyqırımı"nı tanıya bilər"**

yazısı səh.14-də

**"Yeni Daşkəsən" layihəsi reallaşarsa...**

yazısı səh.6-da

**Putinin andiçməsi niyə yubanır? - ekspertlər danışdılar**

yazısı səh.14-də

**Dünyanın 20 ən gözəl qəsəbə və kəndi barədə bilmədiklərimiz**

yazısı səh.15-də

## Ermənistanda ikinci "24 aprel" kabusu - vətəndaş müharibəsi başlayırmı...

İrəvanda etirazların 10-cu günü Serj Sərkisyan müxalifət liderinin ayağına getdi və... istefa tələbini rədd etdi, narazı xalqı güllləbaranla hədələdi; müxalifət lideri, onlarla nümayişçi saxlandı...

yazısı səh.9-da



**Eldar Mahmudov məhkəmə burulğanında**

yazısı səh.5-də



*Toğrul İsmayıl:*

**"Qərbin Türkiyəyə seçki sürprizi edəcəyini düşünmürəm"**

yazısı səh.12-də



*Zahid Oruc:*

**"2015-ci ilin hökuməti ilə müharibə aparmaq təhlükəli idi"**

yazısı səh.7-də

**23 aprel 2018**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018



## Etibar Məmmədov yeni baş nazir haqda: "Milli adamdır"

**Milli Məclisin ötən plenar iclasında Azərbaycan prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Novruz Məmmədovun ölkənin yeni baş naziri vəzifəsinə namizədliyi təsdiqləndi. Novruz Məmmədov vaxtilə Azərbaycan Milli İstiqlal Partiyasının üzvlərindən biri olub.**

Azərbaycan Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədov Modern.az-a açıqlamasında yeni baş nazirlə bağlı təəssüratlarını bölüşüb.

"Novruz Məmmədov yaxından tanıdığım biridir. Ən əsası, milli adamdır. O, işini dərindən bilən şəxsdir, məsuliyyətlidir. Novruz Məmmədova bundan sonrakı işlərində uğurlar arzulayıram. Hamı istəyir ki, yeni hökumət yaxşı işləsin, xalqın, dövlətin xeyrinə fəaliyyət göstərsin".

AMİP lideri yeni hökumətin yaş faktoru məsələsində fikirlərində qaldığını söyləyib. "Yeni hökumətdə "ancaq gənclər təmsil olunmalıdır" fikri doğru deyil. Düşüncə baxımından da gəncləşməlidir. Hökumətdə müasir düşüncəli komandanın olmasına ehtiyac var. Ona görə də yeni baş nazirdən gözləntilərimiz odur ki, xalqın etimadını doğrultsun. Dövlətin, millətin xeyrinə yaxşı çalışsın".

## Keçmiş baş nazir Novruz Məmmədovla görüşmək istəyir



**"Novruz Məmmədovun baş nazir təyinatını yüksək qiymətləndirirəm. Zamanında baş nazir olduğum üçün bu işin məsuliyyətli olduğunu daha yaxşı anlayıram. Ümid edirəm ki, Nazirlər Kabinetində dəyişikliklərin aparılması öz uğurlu nəticəsini verəcək". Bunu Modern.az-a açıqlamasında sabiq baş nazir Rəhim Hüseynov deyib.**

O, yeni nazirlə tanışlıqlarından da bəhs edib. "Novruz Məmmədovla əvvəldən tanışlığımız olub. Amma illər keçəndən sonra əlaqələrimiz kəsilib. Ümid edirəm ki, baş nazir olaraq Novruz Məmmədov Azərbaycanın Qarabağ probleminin həlli yolunda lazımi addımlar ata biləcək. Hətta onunla görüşmək barədə də düşünürəm".

Qeyd edək ki, Rəhim Hüseynov 1992-ci ilin mayından 1993-cü ilin yanvar ayına kimi Azərbaycanın baş naziri vəzifəsində çalışıb. AXC hakimiyyəti dövründə könüllü olaraq baş nazir vəzifəsindən gedib.

## Yeni "Qaçqınkom" sədrindən ilk açıqlama

**"Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemləri, onların həlli hər zaman cənab prezidentin diqqət mərkəzində olub. Mən də bu məsuliyyətli işdə əlimdən gələni edəcəyəm ki, cənab prezidentin etimadını doğruldum". Bunu gununsesi.info-ya açıqlamasında Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin yeni sədri Rövşən Rzayev söyləyib.**

Köçkünlər üçün inşa olunan mənzillərin bölgüsündəki neqativ hallarla bağlı da məsələyə aydınlıq gətirən yeni sədr bildirib ki, artıq bu problemlər keçmişdə qalmış hesab edilə bilər: "Hesab edin ki, artıq bu məsələlər öz həllini tapıb. Qısa zamanda bunun şahidi olacaqsınız".

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Erməni müğənni xalq artisti adından imtina edib müxalifət tərəfə keçdi

**Ermənistandakı böhran bütün sahələrə təsirini göstərib. Artıq ölkənin mədəniyyət adamları da müxalifətə birmənalı dəstək verir. Erməni əsilli müğənni Şarl Aznavurun İrəvanın mərkəzi meydanındakı aksiyaçılara dəstək verməsindən sonra Ermənistanın daha bir tanınmış müğənnisi hakimiyyət əleyhinə sərt addım atıb. Erna Yüzbaşyan Ermənistanın xalq artisti adından imtina edib.**

Musavat.com xəbər verir ki, bu barədə o, özünün Facebook səhifəsində yazıb. Yüzbaşyan yazıb ki, "mənim ölkəmin xoşbəxtliyi və çiçəklənməsi bütün orden və medallardan üstündür. Mən xalq artisti adından imtina edirəm".





## İmişlidə toya gedən ailə qəzaya düşdü

**İmişli rayonunda bir neçə nəfərin xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Report xəbər verir ki, hadisə dünən günorta saatlarında İmişli şəhərində, Şəhidlər Xiyabanı yaxınlığında qeydə alınıb.**

Belə ki, "Mercedes" markalı avtomobil hərəkətdə olarkən qarşıdan gələn avtomobillə toqquşma təhlükəsi ilə üzləşib. Bu səbəbdən sürücü maşını yolun kənarına çıxarıb. Hadisə zamanı "Mercedes"də olan İmişli sakinləri: - 1972-ci il təvəllüdlü Nüşabə Mecdin qızı Fərmanova və qızı - 2002-ci il təvəllüdlü Aysel İnqilab qızı Fərmanova, 1979-cu il təvəllüdlü Aynurə Atakişi qızı Quliyeva və övladları - 2008-ci il təvəllüdlü Ülvi Mahir oğlu Quliyev və 2002-ci il təvəllüdlü Səbinə Mahir qızı Quliyeva aldıqları yüngül bədən xəsarətləri ilə İmişli Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar. Xəstəxanada ilkin tibbi yardım göstərildikdən sonra yaralılar ambulator müalicəyə göndərilib.

Qeyd edək ki, xəsarət alanlar toy mərasiminə gedirlərmiş. Faktla bağlı araşdırma aparılır.



## DİM abituriyentlər üçün Azərbaycan dili imtahanı keçirib

**Dövlət İmtahan Mərkəzi dünən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün imtahan keçirib.**

DİM-in mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün Azərbaycan dili imtahanı Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Lənkəran, Şirvan və Xaçmaz şəhərlərində, ümumilikdə 17 imtahan mərkəzində aparılıb.

İmtahan bütün binalarda eyni vaxtda - saat 13:00-da başlanıb və 45 dəqiqə davam edib. İmtahanda iştirak etmək üçün 6172 abituriyent qeydiyyatdan keçib. İmtahanların idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, gün ərzində imtahan mərkəzləri ilə müntəzəm əlaqə saxlanılıb və imtahan prosesinin gedişinə nəzarət olunub. İmtahan iştirakçılarının öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün bütün imtahan mərkəzlərində lazımi imtahan şəraiti yaradılıb.

Qeyd edək ki, abituriyentlərə imtahanda 30 test tapşırığı təqdim edilir. Hər düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. İmtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.

Ali təhsil müəssisələri və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üzrə keçirilən Azərbaycan dili imtahanı ilə ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üzrə keçirilən Azərbaycan dili imtahanı məzmun baxımından bir-birindən fərqlənir. Aprelin 23-dən başlayaraq DİM-də imtahan protokollarının və cavab kartlarının emalı aparılacaq. Nəticələrin yaxın günlərdə elan edilməsi nəzərdə tutulur.

## Bu gün Bakının bəzi yerlərində yağış yağacaq

**Azərbaycanda aprelin 23-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin günün birinci yarısında bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi günün ikinci yarısında arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 7-10° isti, gündüz 13-17° isti təşkil edəcək.**

Naxçıvan Muxtar Respublikasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gündüz tədricən kəsiləcək. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7° isti, gündüz 15-20° isti olacağı ehtimal edilir. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin səhər bəzi yerlərdə yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman, çiskin olacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10° isti, gündüz 17-22° isti təşkil edəcək. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın əsasən yağmursuz olacağı ehtimal edilir. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 13-18° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 6-11° isti, gündüz 17-22° isti təşkil edəcək. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı gözlənilir. Gündüz tədricən kəsiləcək. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-10° isti, gündüz 15-20° isti, dağlarda gecə 2-7° isti, gündüz 10-15° isti olacağı ehtimalı var.

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018

# Novruz Məmmədovun baş nazir təyinatında Qarabağ faktoru

## "Danışmağı sevən adam"ın yeni missiyası: Ermənistanı Qarabağ danışıqlarında baş nazir təmsil edəcəksə, o halda Azərbaycan da bu görüşlərdə baş nazir səviyyəsində iştirak etməli olacaq...

**Ölkə prezidenti baş nazir təyinatı ilə növbəti dəfə hamını təəccübləndirdi. Hətta parlamentin bəlkə də dövlətçilik tariximizdə ilk dəfə keçirilən şənbə iclası başlayanadək, deputat Zahid Orucun Facebookda açıqladığı namizədin hökumətə rəhbər təyin olunacağına bir çoxları şübhə edirdi. Ancaq prezidentin keçmiş köməkçisi Novruz Məmmədov iclas zalına daxil olanda...bütün şübhələrə son qoyuldu.**

İqtisadiyyatla əlaqəsi olmayan şəxsin hökumətin başına gətirilməsinə bu cür reaksiyanın verilməsi ilk baxışda təbii qarşılana bilər. Heç şübhəsiz ki, dövlət başçısına, onun yürütdüyü siyasi kursa illərin sınağından çıxmış sədaqət burada az rol oynamayıb. Amma hakim komandada prezidentə sədaqəti ilə seçilən digər məmurlar da var idi. Cənab Novruz Məmmədovun adının indiyədək hakimiyyət daxilindəki heç bir qruplaşmalarda hallanmaması, hansısa neqativ məsələlərdə çəkilməməsi də faktdır. Lakin bunu da iddia etmək olmaz ki, hakim düşərgədə belə keyfiyyətlərə malik digər məmurlar yoxdur. Təbii ki, var, onlar da prezidentin rəğbətini qazandıqları üçün illərdir komandada təmsilçilik hüququ qazanıblar. Deməli, prezidentin seçimində başqa məqamlar da öz sözünü deyib. Bu barədə bir az sonra...

Bu yerdə Novruz Məmmədovun bir müsbət keyfiyyətini də xatırlayaq. O, çalışdığı illər ərzində sadəliyi, təvazökarlığı ilə yanaşı, mətbuata açıq olan məmurlardan biri kimi də seçilib. Hətta bu sətirlərin müəllifi illər öncə Administrasiyanın beynəlxalq şöbəsinin müdiri olan cənab Məmmədovdan Qarabağla, Azərbaycanın xarici siyasəti ilə bağlı açıqlamalar alıb və mətbuatımızda belə nümunələr kifayət qədərdir.

Şəxsən mən, 20 illik jurnalist təcrübəmdə çox arzu edirdim ki, Azərbaycanın 22 il baş naziri olmuş Artur Rasi-zadə ilə bircə dəfə kəlmə kəsim, "Yeni Müsavat" qəzeti üçün müsahibə alım, heç olmasa onunla bir xatirə şəklimiz olsun... Amma böyük Cavid nəslinin nümayəndəsi Artur müəllim bütün müsbət keyfiyyətləri ilə yanaşı, publikadan kənar bir məmur idi və bu, media üçün heç də xoşagələn hal deyildi.

Yeni baş nazir isə bu mənada tam fərqli birisidir. Hətta onun mobil telefonu bu günə qədər açıqdır. Düzdür, Novruz müəllim Milli Məclis tribunasından "Bu günə qədər danışmağı sevirdim. Görünür, artıq bundan sonra başqa bir sahəyə keçmək lazımdır, daha çox işləmək lazımdır", -söylədi. İnanmaq istərdik ki, yeni baş nazir sələfi kimi bütün media ilə əlaqəni kəsib kabinetinə çəkilməyəcək, vaxtaşırı mətbuatın qarşısına çıxacaq, mətbuat konfransları keçirəcək, sualları cavablandırmaqla həm də hökumət üzvlərinə nümunə göstərəcək.

Hər halda, mükəmməl bildiyi ana dili ilə yanaşı, rus, fransız, ingilis, türk dillərində də səlis danışan yeni baş nazirimizin xalqa deməyə kifayət qədər sözü olacaq qarşıdakı dönəmlərdə. Çünki prezident ona etimad göstərməklə yanaşı, ondan həm də qarşıya qoyduğu vəzifələrin müvəffəqiyyətlə icrasını, yol xəritələrində əksini tapan hədəflərə nail olunmasını gözləyir.



Ölkənin iqtisadiyyatına gəldikdə, onsuz da burada ayrı-ayrı sahələrin başında duran nazirlər var və olacaq. Məsələn, ASAN-ın keçmiş rəhbəri İnam Kərimovun kənd təsərrüfatı naziri təyin olunması həm də ondan xəbər verir ki, prezident qeyri-neft sektorunun inkişafına da böyük önəm verir, bu sahədəki çətinlikləri də ASANlaşdırmaq istəyir, bu isə ayrı söhbətin mövzusudur...

****

Məncə, Novruz Məmmədovun təyinatında rol oynayan birinci amil... Qarabağ məsələsidir. Əvvəla, hələ növbədənkənar prezident seçkisi elan olunanda bir sıra ciddi mənbələr israrla bu qəfil qərarı Qarabağla əlaqələndirirdilər. Prezident İlham Əliyev inauqurasiya mərasimində bir daha nümayiş etdirdi ki, onun üçün ən önəmli məsələ Azərbaycanın işğal altındakı ərazilərinin azad olunmasıdır. Yəni Cocuq Mərcanlıdan başlayan BÖYÜK QAYIDIŞın Şuşaya, Kəlbəcərə qədər davam etdirilməsidir. Belə olan təqdirdə hökumətin başına dövlətin Qarabağ siyasəti ilə birbaşa əlaqəli olan təcrübəli məmurun, prezidentin xarici siyasət məsələləri üzrə köməkçisinin gətirilməsi tam məntiqlidir və yerində verilmiş qərardır. Novruz Məmmədov mərhum prezident Heydər Əliyevin apardığı danışıqlardan üzü bəri illərdir ki, Qarabağla bağlı gedən prosesin içərisindədir. Deyilə bilər ki, Qarabağ danışıqlarını baş nazir aparmır. Bəli, bu günə qədər vəziyyət belə idi. Bəs, sabah?

****

Qarabağ danışıqlarında ikinci tərəf Ermənistandır. İşğalçı ölkə artıq parlamentli üsul-idarəçiliyə keçib və ölkənin baş naziri Serj Sərkisyandır. İrəvanda keçirilən anti-Sərkisyan aksiyalarının bir gün oyun olduğu üzə çıxa, yaxud elə güc yolu ilə dağıdıla, Xocalı qatili hökumət başçısı kimi öz postunda illər boyu davam edə bilər. Hər halda 22 apreldə müxalifət lideri Nikol Paşinyanla görüşdən sonra Serj Sərkisyanın dedikləri, ardınca da etdikləri və Paşinyanın saxlanması ondan xəbər verir ki, bu cani istefa vermək niyyətində deyil. O, "Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına nail olduqdan sonra vəzifədən gedəcəyini" bildirib. Deməli, bundan sonra Qarabağ danışıqlarında İrəvanı yenə də Serj Sərkisyan təmsil edəcək, sadəcə, prezident yox, baş nazir kimi. O halda Azərbaycan prezidentinin onunla bir masa arxasında oturması mümkünsüz ola bilər. Əvvəla, ona görə ki, prezident Əliyev son illərdə dəfələrlə S.Sərksiyana ağır cavablar verib, hətta BMT tribunasından onun cani olduğunu bildirib, yəni ortada etimad deyilən bir şey qalmayıb. İkincisi də, Ermənistanı Qarabağ danışıqlarında baş nazir təmsil edəcəksə, o halda Azərbaycan da bu görüşlərdə baş nazir səviyyəsində iştirak etməli olacaq. Bu halda Novruz Məmmədovun baş nazir postuna uğurlu kadr olaraq seçildiyini demək mümkündür. Gerçəklik budur ki, biz istəsək də, Qarabağ danışıqlarından imtina edə bilməyəcəyik, hətta müharibə alovlansa belə, bir gün oturub danışmaq lazım gələcək. Deməli, Ermənistan hökumətinin başında uzun illər qalmağı planlaşdıran Serj Sərkisyan danışıqlar zamanı qarşısında Azərbaycanın baş nazirini görəcək.

Novruz Məmmədov özünün "Tvitter" səhifəsində dəfələrlə Sərkisyanı ifşa etməsi ilə də diqqət çəkib. Məsələn, prezidentlərin sonuncu görüşünün ardınca Serj Sərkisyanın razılaşmanı pozaraq danışıqların detallarını açıqlamasına reaksiyasında cənab Məmmədov belə yazmışdı: "Qərara alınmışdı ki, razılaşdırılmış məqamlardan əlavə hələlik heç bir bəyanat verilməsin. Amma o, bunu etdi. Söz versə də, yenə də sözünün üstündə durmadı. Heç olmasa həmsədrlərdən və ATƏT-in nümayəndəsindən utanaydı".

Və təsəvvür edin ki, Sərkisyan günün birində onu "utanmaz" adlandıran azərbaycanlı baş nazirlə Qarabağ danışıqlarını aparır. Serj üçün bu danışıqlar heç də asan keçməyəcək. Təbii ki, söhbət Azərbaycan prezidentinin iştirak etmədiyi danışıqlardan gedir.

****

Novruz Məmmədovun baş nazir vəzifəsinə təyinatından sonra ilk təbrik Rusiyadan gəldi. Üstəlik, cənab Məmmədov hələ 1998-ci ildə Azərbaycan-Fransa münasibətlərinin möhkəmləndirilməsində xidmətlərinə görə Fransa prezidenti tərəfindən "Fəxri Legion" ordeni ilə təltif edilib. Hər halda, söhbət iki həmsədr ölkədən gedir. Nədənsə mən Novruz Məmmədovu iqtisadi komandanın başında duran şəxsdən daha çox, prezidentin Qarabağ siyasətində çiynini bu ağır yükün altına verəcək baş nazir statusunda görürəm. Əslinə buna çox böyük ehtiyac var idi. Necə ki, dünyanın bir sıra güc və terror mərkəzləri ilə döyüşən Türkiyə prezidenti Ərdoğanın yanında baş nazir Binəli Yıldırım var. Hansı ki, bu vəzifəyə təyin olunanda çoxları dodaq büzürdü. Yaşa qalanda, Binəli bəyin də yaşı az deyil. Əsas enerji və təcrübədir. Bizim "danışmağı sevən adam"-baş nazirsə hədəfini də elan edib - iş görmək. Gözləyək...

❑ **Elşad Paşasov,**
**"Yeni Müsavat"**

---

# "Kölgə kabineti"ndə vəzifə bölgüsü



**Samir SARI**

**Eh, keçmişdə gözəl günlər vardı, biz də oturub Nazirlər Kabineti "yaradar", sonra bunu "filan partiyanın kölgə kabineti", "müxalifət koalisiyasının kölgə kabineti" kimi dərc edərdik. Siyasi səhnədə, partiya kuluarlarında ajiotaj əmələ gələr, qırğın düşərdi.**

Bizə, jurnalistlərə bu səlahiyyəti heç kim verməmişdi, sadəcə, görmüşdük ki, vəzifə bölgüsü necə şeydirsə, çox cazibəli, maraqlı, intriqalıdır, ən təmkinli insan da özünü bu intriqadan kənarda saxlaya bilmir, ona görə də yazırdıq, həm müxalifət düşərgəsində canlanma olurdu, həm də tiraj artırdı, qəzet oxuyanlar çoxalırdı.

Düzdür, sonradan az qala hər qəzet bir "kölgə kabineti" yaratmağa və "potensial Nazirlər Kabinetinin tərkibini" siyahı üzrə (necə ki, bu günlərdə real NK-nın tərkibi açıqlanır) yaymağa başladılar, trend ləzzətini bir balaca itirdi, amma yenə maraqlıydı.

Əslində hamı bilirdi ki, belə bir "kabinet"in iş başına gəlməsi üçün öncə Himalay dağını Nepal tərəfdən o üzə aşmaq, Sakit okeanı üzüb Taiti adasına çatmaq və oradan qayıtmaq lazımdır və bu çox çətindir, yenə də xəyali "kabinet"də təmsil olunmaq insanlara ləzzt edirdi. Adları siyahıya düşməyənlərin isə xətirlərinə dəyirdi.

Pah! İnsanların canında nə ambisiyalar varmış!

Düzdür, bu təbii idi, adam siyasətə atılıbsa, meydanlarda can qoyursa, təqiblər, təzyiqlər, məhrumiyyət, sıxıntı qarşısında geri çəkilmirsə, üstəlik, enerjisi aşıb-daşırsa, nədən yüksək vəzifə tutmaq istəməsin?

Pis olan o idi ki, heç kəs hansısa nazirin birinci müavini olmağa razılaşmırdı. Məsələn, elə iddialı şəxs vardı ki, orta məktəbdə adi müəllim idi, heç dərs hissə müdiri də deyildi, amma birbaşa nazir olmaq istəyirdi. Nazirin birinci müavini və ya nazirlikdə idarə rəisi olmaq mümkün deyildimi? Yox.

Başqa nazirliklər də o cümlədən. Hətta Gömrük Komitəsi sədrinin birinci müavini "təyin etməyə" adam tapmırdıq, qorxurduq ki, kiminsə adını çəkərik, xətrinə dəyər.

Gənclər və idman, ekologiya, ehtiyatlar naziri kimi sadə postlara yerli-dibli yiyə duran yox idi. Bir dəfə birinin adını, ixtisasını da nəzərə alaraq ekologiya naziri postunun potensial sahibi kimi göstərmişdik, incimişdi, incik-incik redaksiyaya zəng vurmuşdu ki, bu siyahını kim tərtib edib, deyək, bilsin. Soruşduq ki, nə olub, a bəy, bir haqsızlıqmı var? Bəy xətrin o başında sitəm etdi, dedi ki, ta bundan artıq nə olsun, o, kənd təsərrüfatı naziri olacağı yerdə bu nə vəzifədir, ona veriblər.

İş belə olanda qərara gəldik ki, gələn dəfəki (üç aydan bir yeni "kabinet" formalaşdıra bilirdik) "kölgə kabineti"ndə adama qarşı yol verdiyimiz haqsızlığı aradan qaldıraq.

Bəzən toqquşmalar da olurdu. Heç demə DİN, MTN, Ədliyyə Nazirliyi kimi strukturlarda birinci olmaq istəyən şəxslər ikidən çox imiş. Kimin adı nazir kreslosunun sahibi kimi çəkilirdisə, məmnun qalırdı, "kölgə kabineti"nin hansı dairələrdə tərtib edilməsi ilə maraqlanmırdı, hesab edirdi ki, bu siyahı heç də təsadüfi deyil. Amma kim "kənarda qalırdısa" əndişələnirdi, küskün görünürdü, bəlkə də gedib kabinetə rəhbərlik edəcək birinci şəxslə ayırdetmə prosesi aparırdı ki, nədən ona etimad göstərilmir, axı o da illərdir ki, can qoyur.

Bu işin axırı onunla nəticələndi ki, rəqib partiyaların mətbu orqanı olan rəqib qəzetlər də bu işə girişdilər və bir gün "filan partiyadan məxfi şəkildə əldə etdiyimiz "kölgə kabineti"nin tərkibini açıqlayırıq" girişi ilə siyahılar təqdim etməyə başladılar. Həmin siyahıda öz adımı da gördüm. Bir dəfə məni İTV-nin rəhbəri postuna "layiq görmüşdülər", bir dəfə də PA-nın ictimai-siyasi şöbəsinin müdiri "təyin etmişdilər".

Bunu hansı yaramaz etmişdisə, mənə problem yaratmışdı. Qabağıma çıxan partiya funksionerləri mənə kinayə ilə deyirdilər ki, sən özünü gerçəkdən də ictimai-siyasi şöbənin müdiri vəzifəsində görürsənmi? Deyirdim, yox, siz hakimiyyətə gələndə mən yenə də jurnalist olacağam. Məmnun olurdular. Belə anlaşılırdı ki, bunlar nazir, komitə sədri olanda bizi mətbuat xidmətinin rəhbəri kimi işlədərlər, məsələ bitər.

Belə günlər vardı. İndi oturub özümüzdən 10-15 yaş kiçik şəxslərin nazir təyin edilməsi barədə sərəncamları oxuyuruq.

Halbuki biz "kölgə kabineti" yaradanda, "siyasətlə məşğul olanda", o şəxslər orta məktəbin yuxarı siniflərində oxuyurdular və ən yaxşı halda sinifkom olmaq istəyirdilər.




# Prezident hökuməti dəyişdi, çox kreslo sahibsiz qaldı-əsas səbəb...

## Struktur və kadr islahatları cəmiyyətdə ciddi müzakirələrə səbəb oldu və rəğbətlə qarşılandı; ekspertlər prosesin davamlı olacağını bildirirlər...

**Aprelin 21-də prezident İlham Əliyev Nazirlər Kabinetinin yeni tərkibi haqqında sərəncam imzaladı. Ölkə başçısının təqdimatı ilə prezidentin xarici əlaqələr üzrə keçmiş köməkçisi Novruz Məmmədov Milli Məclis tərəfindən baş nazir təsdiq edildi.**

Prezidentin sərəncamı ilə təsdiqlənən Nazirlər Kabinetinin yeni tərkibində baş nazirin müavinləri sırasında Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbov da yer aldı. Yeni tərkibdə köhnə müavinlərdən Yaqub Eyyubov, Əli Əhmədov və Əli Həsənov postunu qoruyub saxladı. Lakin Əli Həsənov eyni vaxtda tutduğu digər vəzifəni - Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin sədri vəzifəsini itirdi. Bu posta Milli Məclisin deputatı, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Rövşən Rzayev təyin edildi.

Baş nazirin müavinlərindən Abid Şərifov və Elçin Əfəndiyev yeni tərkibdə yer almadılar və böyük ehtimalla, onları artıq təqaüdə göndərilmiş hesab etmək olar.

Yeni tərkibdə güc strukturlarının və hüquq-mühafizə orqanlarının rəhbərlərindən dəyişən olmayıb. Daxili işlər naziri Ramil Usubov, müdafiə naziri Zakir Həsənov, Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri Mədət Quliyev və Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Orxan Sultanov, habelə Dövlət Sərhəd Xidmətinin rəhbəri Elçin Quliyev, ədliyyə naziri Fikrət Məmmədov və fövqəladə hallar naziri Kəmaləddin Heydərov vəzifələrində qalıblar.

O cümlədən, iqtisadiyyat blokundan iqtisadi inkişaf naziri Şahin Mustafayev, vergilər naziri Mikayıl Cabbarov, maliyyə naziri Samir Şərifov, rabitə, nəqliyyat və yüksək texnologiyalar naziri Ramil Quluzadə, energetika naziri Pərviz Şahbazov yenidən həmin vəzifələrə təsdiq ediliblər.

Vəzifədən gedəcəyi barədə vaxtaşırı xəbərlər dolaşan xarici işlər naziri Elmar Məmmədyarov isə yenidən postunda qaldı.

Ən ciddi dəyişiklik isə iqtisadiyyat və sosial sahə üzrə baş verib, bu sektorda iki nazir yenilənib.

Belə ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) sədri İnam Kərimov kənd təsərrüfatı naziri təyin olunub. Keçmiş kənd təsərrüfatı naziri Heydər Əsədov kabinetin yeni tərkibində yer almayıb, onun hansısa bir vəzifəyə təyin ediləcəyi məlum deyil.

Kənd təsərrüfatının inkişafının prioritet seçildiyi bəllidir. Aqrar sahə ilə bağlı ötənlərdə Heydər Əsədov hansısa bir uğura imza ata bilməmişdi. Kənd təsərrüfatı naziri postuna ASAN Xidmət projesində özünü tam doğruldan İnam Kərimovun gətirilməsi aqrar sahədə sıçrayışlara ümidlər verir. Bu təyinat xüsusi ilə fermerlərin sevincinə səbəb olub...

Əmək və əhalinin sosial müdafiəsi naziri də dəyişib. Səlim Müslümovu iqtisadiyyat nazirinin müavini Sahil Babayev əvəzləyib. Keçmiş nazir Səlim Müslümov kabinetin yeni tərkibində yer almayıb. Onun Bakı meri, yaxud təhsil naziri ola biləcəyi barədə də xəbərlər dolaşmaqdadır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri isə Samir Nuriyev təyin edilib. Bu komitənin rəhbəri Abbas Mustafayev prezident seçkiləri ərəfəsində vəfat etmişdi. Yeni sədr Samir Nuriyev İçərişəhər Dövlət Qoruğunun keçmiş sədr müavini, 2013-cü ildən qoruğun sədri, 2016-cı ildən isə Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru idi.

Yeni kabinetin tərkibində bir sıra nazirliklərin və dövlət komitələrinin rəhbərləri vəzifələrinə isə hələlik təyinat olmayıb. Belə ki, səhiyyə naziri Oqtay Şiraliyev, gənclər və idman naziri Azad Rəhimov, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, müdafiə sənayesi naziri Yavər Camalov vəzifələrinə təsdiq edilməyiblər. Onlar bundan sonra bu nazir postlarını müvəqqəti icra edəcəklər.

Aylardır boş qalan təhsil naziri postu ilə bağlı da suallara aydınlıq gəlməyib.

Dövlət Gömrük Komitəsinə, Əmlak Məsələləri Dövlət Komitəsinə, Dövlət Statistika Komitəsinə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, Diaspor ilə İş üzrə Dövlət Komitəsinə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Dövlət Miqrasiya Xidmətinə də sədr təyinatları olmayıb. Qeyd edilən kreslolar hələlik boşdur.

Yeni hökumətdə bir sıra sürpriz təyinatların olması, eləcə də, bəzi postların boş qalması təbii ki, gündəminin əsas müzakirə mövzusudur. Yaxın günlərdə yeni hökumətin tam şəkildə formalaşacağı, boş qalan vəzifələrin sahiblərinin ictimaiyyətə məlum olacağı bildirilir.

Baş verən kadr dəyişiklikləri, struktur islahatları, bir sıra qurumların ləğvi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. Bunu sosial şəbəkələr və mətbuatda gedən müzakirələrdə görmək mümkündür. İslahatların davamlı olacağı qeyd edilir.

Ən ciddi müzakirə mövzusu isə heç şübhəsiz ki, baş nazir təyinatı ilə bağlıdır. Çünki bu posta iddialı kimi xeyli adamın adı çəkilsə də, proqnozlarda Novruz Məmmədovun adı çəkilmirdi. İqtisadi sahə ilə əlaqəsi olmayan, siyasət adamı kimi tanınan N.Məmmədovun baş nazir təyinatı sürpriz kimi qiymətləndirilir.

## Fəzail Ağamalı: “Bir çoxları Artur müəllimin yerinə bir iqtisadçının gələcəyini güman edirdi, amma...”

Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı “Yeni Müsavat”a açıqlamasında dövlət başçısının sərəncamını yüksək dəyərləndirdi: “Ölkə başçısının Milli Məclisə ünvanladığı məktub yaxşı mənada hər kəsi təəccübləndirdi. Bir çoxları hörmətli Artur müəllimin istirahətə gedəcəyini düşünüb, onun yerinə bir iqtisadçının gələcəyini güman edirdi. Lakin ölkə başçısı tamam fərqli bir mövqe ortaya qoydu və Novruz müəllimin baş nazir kimi təsdiqini Milli Məclisə göndərdi. Novruz Məmmədov cəmiyyətdə dərin imici olan, kifayət qədər səmimi, Azərbaycan müstəqilliyinə son dərəcə sədaqətli, Heydər Əliyev ideyalarına bütün ruhu ilə bağlı bir insandır. Bunu tam məsuliyyətlə deyirəm. Novruz müəllim heç bir korrupsiyada, qruplaşmada yer almayan, öz təmiz adını qoruyub saxlayan məmurlarımızdan biridir. Bu baxımdan dövlət başçısının bu seçimini uğurlu hesab edirəm. Nəzərə alsaq ki, Novruz Məmmədov alimdir, 90-cı illərin ortalarından Prezident Administrasiyasında çox məsul vəzifədə çalışıb, özünün dediyi kimi, 80-dan yuxarı ölkədə səfərdə olub, onlarla ən müxtəlif səviyyəli fərqli peşə sahiblərinin ölkə başçısı ilə görüşündə onun yanında yer alıb, o müzakirələrdə iştirak edib, demək, universal dövlət məmuru kimi tam formalaşıb. Onun baş nazir kimi üzərinə qoyulan vəzifəni yerinə yetirməsində hər hansı bir problem görmürəm. Ümidvaram ki, Novruz müəllim ona tapşırılan işin öhdəsindən gələcək, etimadı doğruldacaq, baş nazir kimi cəmiyyətdə ciddi nüfuz qazanacaq. Əlbəttə, hər bir vəzifə orada işləyənin adı ilə onun yaratmış olduğu prinsiplərə birbaşa bağlıdır. Ulu öndərimiz Azərbaycan dövlətinin əsaslarını yaratdı. Bu gün həmin əsaslara söykənən İlham Əliyev böyük uğurla ölkəmizi yüksək inkişaf səviyyəsinə qaldıra bilir. Azərbaycanın baş naziri kimi belə bir təməli dəyərli dövlət adamı olan Artur Rasi-zadə qoyub. Bu təməl dövlətə, ideyalara sədaqət, təmənnasız millət xidmət etməkdir. Artur müəllim baş nazir necə olmalıdır təsəvvürünü yaratdı. Bu, Novruz Məmmədov üçün bir bazadır. Ona görə də, onun baş nazir kimi fəaliyyətində hər hansı bir problemlərlə rastlaşacağını düşünmürəm...”

F.Ağamalı yeni kabinetin tərkibi ilə bağlı dedi ki, prezidentin etdiyi dəyişikliklər gözlənilən idi: “Bir sıra sahələrdə hələlik təyinatlar yoxdur, güman edirəm ki, o postlarda da yeni təyinatlar olacaq. Beləliklə, yeni nazirliklər, qurumlar artıq yeni, potensialı olan kadrlarla əvəzlənmiş olacaq. Bəzi məmurların vəzifələrindən gedişləri barədə hər hansı bir fikir söyləmək istəmirəm. Çünki onun üçün əlimdə konkret faktlar yoxdur. Lakin düşünürəm ki, ölkə rəhbərinin əlində kifayət qədər arqumentlər olduğu üçün bu yeniliklərə imza atıb, bəzi məmurları yeniləri ilə əvəzləyib. Bu, prezidentin konstitusion hüququdur. Buna hər hansı bir şərh verməyi etik normalardan kənar hesab edirəm”.

Deputat islahatların davam edəcəyi anonsunu da verdi: “Heç şübhəsiz ki, islahatlar davamlı olacaq. Fikir verin, ölkə başçısı yeni hökuməti formalaşdırmamışdan öncə idarəçilik sistemində müəyyən dəyişiklər etdi. Standartlaşdırma və Metrologiya Komitəsi ləğv olundu, onun funksiyaları müəyyən qurumlar arasında bölündü. Eyni zamanda, Mədəniyyət və Turizm Nazirliyi ayrılaraq, Mədəniyyət Nazirliyi oldu, turizm sahəsi bundan sonra bir agentlik kimi yeni bir statusda fəaliyyət göstərəcək. İdarəçilikdə başqa dəyişikliklər də indiyə qədər olub. Bundan sonra da idarəçilikdə dəyişikliklərin davamlı olması gözlənilir. Ölkə prezidenti hökuməti tam formalaşdırandan sonra ola bilsin ki, gələcəkdə formalaşan bu kabinetdə də müəyyən dəyişiklərin edilməsi zəruri olsun. Belə olan hallarda prezident kadr potensialına söykənərək, komandaya yeni simalar gətirə bilər. Bunlar heç bir halda istisna olunmur”.

F.Ağamalı qarşıdakı hədəflərdən söz açdı: “Andiçmə mərasimində ölkə başçısı qarşıda duran hədəflərin anonslarını verdi. Bu islahatlar geniş miqyas alacaq, siyasi, iqtisadi, hüquqi və sosial istiqamətləri əhatə edəcək. Cəmiyyətin daha dayanıqlı olması üçün ciddi addımlar atılacaq. Müxalifətlə iqtidar arasında münasibətlər yeni bir mərhələyə qədəm qoyub. Prezidentin onlara təşəkkküründə bunlar önə çəkildi. Bunlardan öncə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin çap olunmuş məqaləsində ciddi məqamlara toxunuldu. Bu fikirlər, düşüncəmə görə, təkcə Ramiz Mehdiyevin deyil, bütövlükdə administrasiyanın, cənab prezidentin fikirləri idi. Nəticə etibarı ilə tam əminəm ki, qarşıdakı 7 ildə Azərbaycanın iqtisadi, sosial inkişafı daha yüksək mərhələyə qədəm qoyacaq, davamlı inkişaf əsas vəzifələrdən biri kimi özünü göstərəcək, hərbi quruculuğa ciddi fikir veriləcək, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün səylər daha da artırılacaq. İşğal altında olan torpaqlarımızın azad edilməsində müharibə amilini qətiyyən istisna etmirəm. Yaxın zaman kəsiyində ali baş komandanın tapşırığı ilə qəhrəman ordumuz işğal altındakı ərazilərimizi azad edəcək, iki yüz ildən artıqdır davam edən erməni işğalına, vandalizminə nəhayət son qoyulacaq, biz onlara tarixi dərsi verə biləcəyik. Buna çox ümidliyəm. Azərbaycan bundan sonra da Cənubi Qafqazın lider dövləti olacaq, beynəlxalq səviyyədə gücü, nüfuzu daha da artacaq, ölkəmizdə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi davam edəcək. Əminəm ki, qarşıdakı 7 ildə Azərbaycan Qafqazın və Şərqin ikinci İsveçrəsinə çevriləcək, bütün güc mərkəzlərinin dialoq məkanı kimi özünün bəşəriyyətə töhfələrini verəcək”.

**Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018




# Eldar Mahmudov məhkəmə burulğanında

## Keçmiş məmur sabiq nazirə qarşı iddia qaldırıb; Mahmudovun övladı, əmisi oğlu da məhkəmələrdə cavab verməli olacaqlar

**11 ilə yaxın milli təhlükəsizlik naziri postunu tutmuş, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyindəki "soyğunçu çete"ni himayə etmiş Eldar Mahmudov indiyədək həbs olunmasa da, hazırda məhkəmə burulğanındadır. Qızının ardından onun özünü də məhkəməyə veriblər, sabiq nazirin əmisi oğlunu da bu ilin sonlarında məhkəmə qarşısına çıxaracaqlar. Mahmudovların qeyri-rəsmi toxunulmazlığı 2015-ci ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində keçirilən məlum əməliyyatdan sonra götürülsə də, ötən ilin sonlarına qədər onlara qarşı faktiki olaraq addım atılmırdı.**

Ara-sıra sabiq nazirin əmisi oğlu və köməkçisi olmuş Vüqar Mahmudovu məhkəmələrə çağırıb, 1-2 sual verib yola salırdılar.

2017-ci ilin noyabrında isə Vüqar Mahmudovu Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsinə çağırıb həbs etdilər. Ardınca Eldar Mahmudov da istintaqa çağırıldı, bir neçə dəfə ifadə verdi.

İndi isə Eldar Mahmudov, eyni zamanda, ləğv edilmiş MTN-in Baş İstintaq İdarəsinin rəisi olmuş Mövlan Şıxəliyev məhkəməyə verilib.

Hər 2 şəxsi məhkəməyə bir müddət əvvəl şərlənərək həbs edilən, 21 ay həbsdə saxlanılan və sonradan isə bəraət alan Mətləb Mustafayev verib. Mətləb Mustafayev sabiq nazir Eldar Mahmudova qarşı Yasamal rayon Məhkəməsində iddia qaldırıb. O, iddia ərizəsində Eldar Mahmudovun sifarişi ilə şərlənərək həbs edildiyini göstərib. Mətləb Mustafayev sabiq nazirdən 100 min manatdan çox pul təzminatı ödəməsini tələb edir. İddia ərizəsi baxılması üçün hakim Sərdar Mehrəliyevin icraatına verilib. Məhkəmənin ilkin baxış iclası aprelin 24-nə təyin edilib. Mətləb Mustafayev Mövlam Şıxəliyevə qarşı qaldırdığı iddia ərizəsini Səbail rayon Məhkəməsinə göndərib. O, iddia ərizəsində şərlənərək həbs edilməsindən sonra barəsində olan cinayət işi üzrə istintaqın Mövlam Şıxəliyevin rəhbərlik etdiyi idarədə aparıldığını göstərib. Ona qarşı həmin idarədə qanunsuz hərəkətlər edilib, guya İran vətəndaşı olan Rza adlı şəxsdən aldığı silahla bağlı barəsində ittiham hazırlanıb. Mətləb Mustafayev sabiq idarə rəisindən 63 min manat təzminat ödəməsini tələb edir. Bu iddia ərizəsi hakim Nurəddin Bağırovun icraatına verilib. İlkin baxış iclası mayın 1-nə təyin edilib. Mətləb Mustafayev hər 2 iddia ərizəsində Maliyyə Nazirliyini də cavabdeh kimi göstərib.

Buna səbəb Eldar Mahmudov və Mövlam Şıxəliyev qanunsuz hərəkətlər edən zaman dövlət orqanlarında rəhbər şəxs olmaları olub. Mətləb Mustafayev əvvəllər Dövlət Əmlak Komitəsində müxtəlif vəzifələrdə çalışıb, 2014-cü ilədək «Azərsu» ASC-də iqtisadçı işləyib. O, 2014-cü ilin sentyabrında MTN-in keçirdiyi əməliyyat nəticəsində həbs edilib. MTN-in o dövrdə məhkəməyə göndərdiyi ittihamdan məlum olur ki, Mətləb Mustafayev istintaqa məlum olmayan vaxtda və mənbədən qanunsuz olaraq odlu silah əldə etməkdə təqsirləndirilib. Ona Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz silah saxlama) maddəsi ilə ittiham verilib və 2015-ci il aprelin 24-də Nəsimi rayon Məhkəməsinin hökmü ilə 2 il müddətinə azadlıqdan məhrum olunub. Bakı Apelyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb. Müdafiə tərəfinin kasasiya şikayətinə Ali Məhkəməsinin hakimi Gülzar Rzayevanın sədrliyi ilə baxılıb, Bakı Apelyasiya Məhkəməsinin qərarı ləğv olunub. Axar.az xəbər verib ki, Mətləb Mustafayev apelyasiya şikayətində günahsız olduğunu, MTN-nin Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev, MTN-nin rəhbər şəxsləri və digər əməkdaşları tərəfindən şərlənərək həbs edildiyini qeyd edib. O, barəsində bəraət hökmünün çıxarılmasını istəyib. Bundan sonra Bakı Apelyasiya Məhkəməsində hakim Rizvan Səfərovun sədrlik etdiyi kollegiyada Mətləb Mustafayevin işinə yenidən baxılıb. Hakim heyətinin qərarı ilə Mətləb Mustafayevin barəsində bəraət hökmü çıxarılıb. Mətləb Mustafayevin MTN-də 31 il xidmət etmiş qardaşı, polkovnik Malik Mustafayev onun həbsindən bir neçə gün sonra özünü asaraq, intihar edib. MTN-in Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev və onun müavini İlqar Əliyev Mətləb Mustafayevdən başqa vəzifəli şəxslərin əleyhinə ifadə almağa çalışıblar. MTN ləğv ediləndən sonra nazirliyin Antiterror Mərkəzinin sabiq rəis müavini, polkovnik İlqar Əliyev həbs edilib. O, 2015-ci il dekabrın 20-də saxlanıldığı Bakı İstintaq təcridxanasında özünü asaraq intihar edib. İlqar Əliyev intihar edəndən sonra Elçin Quliyev həbs olunub. Elçin Quliyev və onun işçisi Azər Mehdiyevin cinayət işi Bakı Hərbi Məhkəməsində keçirilib. Məhkəmənin hökmü ilə Elçin Quliyev 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Bu hökmdən narazı qalan Elçin Quliyev apelyasiya şikayəti versə də, Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə onun bəraət istəməsi barədə şikayəti təmin edilməyib. Elçin Quliyevin barəsində tərtib edilmiş ittiham aktında Mətləb Mustafayev və Malik Mustafayev zərərçəkmiş şəxs qismində tanınıblar. Mətləb Mustafayev həmçinin zərərçəkmiş Malik Mustafayevin hüquqi varisi qismində də tanınıb.

Eldar Mahmudovun qızı Nərgiz Mahmudova və digər 2 şəxsə qarşı iddia isə bu ilin martında məhkəməyə təqdim olunub. Eks nazirin qızını məhkəməyə verən isə "Eyfel" MMC tikinti şirkətidir. İddiaçı qismində tanınan tikinti şirkəti tələb edib ki, MMC ilə Nərgiz Eldar qızı Mahmudova, Q.Şahqasımov və T.Əzimova arasında bağlanmış müqavilələr etibarsız hesab edilsin. Bununla yanaşı, "Eyfel" MMC hər 3 şəxsə qarşı işgüzar nüfuzu ləkələyən məlumatların təkzib edilməsi və sair tələbi barədə qarşılıqlı iddia tələbi də irəli sürüb. Yasamal Rayon Məhkəməsi tikinti şirkətinin heç bir iddiasını təmin etməyib. Bundan sonra "Eyfel" MMC Bakı Apelyasiya Məhkəməsinə müraciət edib. "Eyfel" MMC-nin rəhbəri Yavər Qurbanov şirkəti "MTN işi"nə görə hazırda axtarışda olan "Akula Akif" ləqəbli Akif Mustafayevlə birgə təsis edib. Belə ki, Eldar Mahmudovun ölkədə "at oynatdığı" dönəmdə Yavər Qurbanov MTN-in (ləğv olunub) dəstəyi altında bir sıra qanunsuzluqlara imza atıb. O, törətdiyi dələduzluq əməlinə görə 10 ildən artıq azadlıqdan məhrum etmə cəzasına məhkum olunmalı olduğu halda MTN-in dəstəyi ilə cəmi 8 aylıq cəza ilə canını qurtara bilib. Yavər Qurbanov bundan sonra da qanunsuzluq etməkdə davam edib. Bu dəfə Nəsimi rayonu ərazisində, Azadlıq prospekti, 80 ünvanında yerləşən beşmərtəbəli binaları içərisində yaşayış ola-ola, sakinlərin hamısı köçürülmədən sökməyə başlayıblar. Söküntünü "Fədək" MMC aparıb. Sakinlər isə buna etiraz ediblər. 2017-ci ilin martında baş verən söküntü işləri gedərkən məlum olub ki, bu MMC-nin təsisçisi Yavər Qurbanovdur. Onun keçmişi haqda məlumat alan sakinlər mənzillərindən çıxmaq istəmir, şirkətin təklif etdiyi şərtləri qəbul etmirdilər. Deyirlər ki, cəmi 10 manat nizamnamə kapitalı olan hansısa MMC-nin möhürünə etibar edib mənzillərinin dağıdılmasına razı ola bilməzlər. Çünki bu şirkətin müqavilə öhdəliklərinə əməl edəcəyinə onlarda əminlik yoxdur. Əsas da odur ki, MMC-nin təsisçisi Yavər Qurbanov bundan əvvəl mənzil dələduzluğuna görə həbs olunub. Yada salaq ki, 2009-cu ildə Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən Bakı şəhər sakini, "Eyfel" MMC-nin direktoru Yavər Qurbanov saxta sənəd tərtib etməklə yeni inşa edilən çoxmərtəbəli binadan Rasif Sultanov adlı şəxsə mənzil satıb. Bu dələduzluq faktı ilə bağlı Yasamal Rayon Polis İdarəsinə şikayət ərizəsi təqdim edilib. Ərizə əsasında cinayət işi başlanıb və Qurbanov həbs edilmişdi. Yavər Qurbanovun direktoru olduğu "Eyfel" MMC Bakı metrosunun Nizami stansiyasının yaxınlığında çoxmərtəbəli yaşayış binasının inşasını həyata keçirib. Mətbuatda yer alan xəbərlərə görə, o, həmçinin Eldar Mahmudovun xüsusi agenti, hazırda beynəlxalq axtarışda olan "Akula Akif"lə birlikdə 2010-cu ildə "ZAZ" MTK adlı digər tikinti şirkətini də təsis etmişdi. "Akula Akif" kimi tanınan Akif Mustafayev keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun ən sadiq adamlarından biri hesab olunur. Mustafayev Akif İsmayıl oğlu özünü iş adamı kimi tanıtsa da, əslində onun əsas vəzifəsi imkanlı iş adamları haqda MTN-dəki mütəşəkkil qruplaşmaya dosye toplayıb çatdırmaqdan ibarət olub. "Akula"nın sxeminə əsasən MTN həmin iş adamları barədə dosyeləri aldıqdan sonra onları izləyir və həbs edirdi. Bu zaman "Akula" MTN-dəki mütəşəkkil qruplaşmanın qarmağına düşmüş iş adamına öz xidmətlərini təklif edir və onlardan iri məbləğlərdə pulun alınıb Eldar Mahmudova çatdırılmasını, beləliklə, girovun "xilas edilməsini" həyata keçirirdi. O, E.Mahmudovun işdən çıxarılması barədə 2015-ci il oktyabrın 17-də elan edilən fərmandan və həmin gün MTN-in binasında Baş Xüsusi Dövlət Mühafizə İdarəsinin keçirdiyi əməliyyatdan xəbər tutan kimi ölkədən qaçmaq qərarına gəlib. Növbəti gün o, səhər saat 08:40 reysi ilə Bakıdan Belarusun paytaxtı Minskə, oradan isə Parisə qaçıb. Hazırda isə İnterpolun axtarışındadır. Beynəlxalq polis təşkilatının rəsmi saytında göstərilir ki, 1955-ci ildə anadan olmuş Akif Mustafayev Azərbaycanın prokurorluq orqanları tərəfindən axtarışa verilib, ona qarşı rüşvət ittihamı var.

Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovu, qeyd etdiyimiz kimi, ötən ilin noyabrında həbs ediblər. Bakı Hərbi Məhkəməsi Vüqar Mahmudovun barəsində ilkin olaraq 4 aylıq həbs qərarı verib. Həmin müddət bu ilin fevralında bitib. Bundan sonra Vüqar Mahmudov yenidən məhkəmə qarşısına çıxarılıb və həbs müddəti növbəti dəfə 4 ay müddətinə uzadılıb. Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləmiş və faktiki olaraq sabiq nazir E.Mahmudovun köməkçisi funksiyasını həyata keçirmiş polkovnik-leytenant V.Mahmudov MTN-in vəzifəli şəxsləri barəsində Baş Prokurorluğun Ağır Cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaq olunan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilib. V.Mahmudov Cinayət Məcəlləsinin 179.3.1-ci (mütəşəkkil dəstə tərəfindən mənimsəmə), 179.3.2-ci (külli miqdarda mənimsəmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 302.1-ci (əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi), 302.2-ci (eyni əməllər gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə) və 341.2.1-ci (bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə) maddələri ilə ittiham irəli sürülüb.

**E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018



# Abutalıbovdan boşalan Bakı meri postuna daha bir namizəd - iddia

**Bakı Şəhər İcra Hakimiyyəti başçısı postunun kimə həvalə ediləcəyi cəmiyyəti ciddi şəkildə maraqlandırır. Musavat.com-un əldə etdiyi məlumata görə, Hacıbala Abutalıbovu gənc bir kadr əvəzləyəcək. Belə ki, mer postuna "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin sədri olan Zakir İbrahimov təyin olunacaq.**

Qeyd edək ki, rəsmi tərcümeyi-halına görə, Z.İbrahimov 1974-cü ildə Bakı şəhərində anadan olub. 1990-cı ildə Leninqrad Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olub, 1995-ci ildə Bakı Dövlət Universitetinin eyniadlı fakültəsini bitirib.

2004-2006-cı illərdə Odlar Yurdu Universiteti, ABŞ Corciya Dövlət Universitetinin Magistr proqramı üzrə biznesin idarəedilməsi (MBA) istiqamətində təhsil alıb. 1993 - 1995-ci illərdə "TAİS" Azərbaycan Gənclər İnteqrasiya Mərkəzində, 1995 - 1998-ci illərdə "Azticarət" Açıq Tipli Səhmdar Cəmiyyətində Hüquq və Biznesin İnkişafı üzrə aparıcı mütəxəssis vəzifəsində çalışıb. 1998 - 2002-ci illərdə "Azpetrol LTD" Məhdud Məsuliyyətli Cəmiyyətində Xüsusi Layihələrin Koordinasiyası və Təchizat Şöbəsinin müdiri, 2003 - 2004-cü illərdə "EUPEC PipeCoating Azerbaijan BM" baş direktoru işləyib.

2004-2005-ci illərdə "Azpetrol Neft Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətində Strateji araşdırmalar, ictimaiyyətlə əlaqələr, marketinq və təchizat departamentinin müdiri, 2005-2006-cı illərdə Moldova Respublikasında "Azpetrol SRL" şirkətində, 2006 - 2009-cu illərdə "EVR LTD" Məhdud Məsuliyyətli Cəmiyyətində baş direktor vəzifəsində çalışıb. 2009-2016-cı illərdə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətində İdarə Heyətinin sədri olub. 26 may 2016-cı il tarixindən etibarən "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışır.

Yeni yaradılmasına baxmayaraq, "AzerGold" qızıl yataqlarının kəşfiyyatı, qızıl və gümüşün hasilatı və ixracı sahəsində xeyli işlər görüb. Onun fəaliyyəti sayəsində Azərbaycanın qeyri-neft ixracatında qızıl ikinci yerə yüksəlib. Z.İbrahimov həm "Təmiz Şəhər"ə, həm də indi "AzerGold"a rəhbərliyi dövründə ictimaiyyətə açıqlığı ilə tanınıb. Mətbuatla sıx təmasda işləməyi onu hazırkı məmur heyəti arasında xüsusi fərqləndirən cəhətlərindən biridir. Bu baxımdan BŞİH rəhbəri olaraq indiyədək mətbuata qapalılığı ilə tanınan Bakı meriyasının fəaliyyətində açıqlıq prinsiplərinin tətbiq olunacağı gözlənilir.

Əlavə edək ki, Bakıya rəhbərlik edəcək iddiaçılar sırasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovun, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun, sabiq nazir Azad Rəhimovun və Daşkəsənin icra başçısı Əhəd Abıyevin də adları çəkilir.

❑ Musavat.com

# Daşkəsən - torpağının altı qızıl, üstü cənnət olan rayon

## "Yeni Daşkəsən" layihəsi həyata keçirilsə, böyük potensial reallaşa bilər











**Daşkəsən rayonu Azərbaycanın ən ucqar, eyni zamanda, faydalı qazıntılarla zəngin rayonlarından biridir. Yüksək dağlıq rayonu olan Daşkəsənin bir zənginliyi turizm baxımdan çox əlverişli təbiətə malik olmasıdırsa, digəri qızıl-gümüş kimi qiymətli metallardır.**

Son vaxtlar Daşkəsən rayonu tez-tez mətbuatın gündəminə gəlir - orada həyata keçirilən layihələrlə. Belə ki, bir neçə il əvvələdək ölkənin ən geridə qalmış rayonlarından sayılan Daşkəsən bu gün bütün rahatlıqlarla təmin olunmuş çoxsaylı turizm obyektləri, turizm məkanları, Çovdar qızıl zavodu ilə tanınmaqdadır.

Qeyd edək ki, "AzerGold" QSC ilə rayon rəhbərliyinin sıx əməkdaşlığı şəraitində "Çovdar" qızıl yatağında hasilat böyük sürətlə bərpa olunub, burada müasir standartlara cavab verən zavod qurulub. Hazırda yataqda həm hasilatın genişləndirilməsi, həm də yeni istehsal sahələrinin yaradılması istiqamətində işlər böyük sürətlə davam etdirilir. Bütün bu işlərin reallaşmasında "AzerGold" QSC-nin rəhbəri Zakir İbrahimovun yüksək rolu olub. Onun işinə məsuliyyətlə yanaşması, çevik idarəetmə bacarıqları, eyni zamanda rayon icra hakimiyyəti başçısı Əhəd Abıyevin prosesə yaxından dəstəyi sayəsində Çovdar qızıl zavodu qısa zamanda fəaliyyətə başlayıb (Yeri gəlmişkən, dünəndən etibarən Z.İbrahimovun adı Bakı Şəhər İcra Hakimiyyəti başçısı postuna əsas namizədlərdən biri kimi hallanmaqdadır).

Qeyd edək ki, hazırda Daşkəsəndə iki böyük müəssisənin fəaliyyətinin genişləndirilməsinə böyük ehtiyac duyulur. Bunlar Daşkəsən Filizsaflaşdırma Kombinatı və Alunit istehsalat sənaye sahəsidir. Hər iki müəssisə Sovet dövründə yaradılıb, böyük istehsalat müəssisəsi kimi uzun illər fəaliyyət göstərib. Bu müəssisələrdə minlərlə insan işləyib.

Bir məqamı da qeyd edək ki, Daşkəsən rayonunun yaranması, salınması Filiz Saflaşdırma Kombinatının bazası əsasında baş verib. Kombinatda işləməyə gələn insanlar burada məskən salıb yaşamağa başlayıblar.

Hazırda hər iki müəssisə köhnəlib, sıradan çıxaraq işləmir. Bu iki böyük istehsal müəssisəsinin bərpa olunub yenidən işləməsi, müasir səviyyədə avadanlıqlarla təmin olunması rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin təşəbbüsü ilə hazırlanaraq Daşkəsən ictimaiyyətinə təqdim olunan "Yeni Daşkəsən" layihəsində əsas vəzifə kimi qarşıya qoyulub.

Bu iki böyük istehsal müəssisəsinin yenidən işə düşməsi məsələsi ilə bağlı prezident İlham Əliyev tərəfindən müvafiq tapşırıqlar verilib. Belə ki, Daşkəsən Filizsaflaşdırma Kombinatı özəlləşdirməyə açılıb, hazırda onun satışı ilə bağlı investisiya müsabiqəsi keçirilir. Görülən tədbirlər nəticəsində yaxın zamanlarda hər iki müəssisənin fəaliyyətini tam bərpa edəcəyi gözlənilir.

Daşkəsən rayonunda əhalinin işlə təmin olunması, sosial təminatının gücləndirilməsi istiqamətində də mühüm işlər həyata keçirilir. Bu baxımdan, kənd təsərrüfatının inkişaf etdirilməsi, aqrar istehsalın genişləndirilməsi, yeni istehsal və emal müəssisələrinin yaradılması, bununla da həm əhalinin həyat səviyyəsinin yüksəldilməsi, həm də rayon sakinlərinin işlə təmin olunması Daşkəsən rəhbərliyinin müəyyənləşdirdiyi əsas prioritet istiqamətlərdəndir.

Təşəbbüskarı Ə.Abıyev olan "Yeni Daşkəsən" layihəsinin reallaşdırılması nəticəsində Daşkəsən rayonu regionda inkişaf etmiş pilot bir sənaye rayonuna çevrilməkdədir.

❑ TURQUT

# "2015-ci ilin hökuməti ilə müharibə aparmaq təhlükəli idi"

## Zahid Oruc: "Novruz Məmmədovun - siyasi komanda üzvünün hökumətə gətirilməsi bütün kənar ambisiyaların neytrallaşdırılması deməkdir"

**"Baxış bucağı"**

**Nazirlər Kabinetinin yeni rəhbəri ilə bağlı ilk açıqlamanın müəllifi olaraq deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc növbəti dəfə medianın diqqətini özünə cəlb edə bildi. Bundan əvvəl də bir neçə dəfə təsdiqlənən anonsları və proqnozları ilə cəmiyyəti dərindən düşündürən keçmiş prezidentliyə namizədlə geniş müsahibəyə qərar verdik. Həmsöhbətimiz yeni baş nazir təyinatı, hökumətin təzə tərkibi və bir sıra digər məsələlərlə bağlı "Yeni Müsavat"a ilginc açıqlamalar verdi.**

***- Zahid bəy, ötən il prezident seçkiləri ilə bağlı yazdıqlarınız öz təsdiqini tapdığı kimi, bu dəfə də baş nazir postuna sürpriz adı ilk olaraq siz açıqladınız. Maraqlıdır, çox dar çərçivəyə məlum olan informasiyaları necə əldə edirsiniz?***

- Dövlət sirri xarakteri daşıyan informasiyalara çıxış hüququ parlament üzvlərində çox məhduddur. Halbuki konfidensiallıq şərtlərinə əməl etməklə və məsuliyyət daşıyıcı sənədləri imzalamaqla digər hakimiyyət qolları arasında balans üçün məxfi məlumatlar üzərində inhisarçılıq aradan qaldırıla bilərdi. Təsəvvür edin ki, ABŞ Konqresi və ya Britaniya parlamenti ölkənin ən strateji təhlükəsizlik məsələləri - tutaq ki, Rusiyanın seçkilərə müdaxiləsi üzrə problemləri müzakirəyə çıxarır. Qanunverici orqan təmsilçilərinə təqdim olunan raportlar Mərkəzi Kəşfiyyat İdarəsi və Federal Kəşfiyyat Bürosunun müxtəlif yollarla - elektron casusluqdan tutmuş ta konkret gizli agentlərin ötürdükləri şifrəli göndərişlərə qədər, hamısı barəsində tam təsəvvürləri olmasa, onlar nəyi müzakirə edəcəklər? Bizim idarəetmə reallığı xeyli fərqlidir. Təsəvvür edin, əgər Milli Təhlükəsizlik Nazirliyinin sərəncamında olan qovluqlar və əməliyyatlar barəsində dar çərçivəli müzakirələr hökumətin divarlarından kənara çıxsaydı, nələr baş verərdi? Lakin yüksək amallar naminə əl atılan qapalılıq sistemi xalqın əleyhinə o boyda cinayətlərin də üstünə bir örtük kimi çəkilirsə və indi onun ağrısını hamımız daşıyırıqsa, deməli, müəyyən qaydalara yenidən baxılmalıdır. Ləkələnmiş mundir sarsılmış inam deməkdir və uzun illər vətəndaşlarımızı gözəgörünməz cəbhədə qoruyan "mələklər"ə inanmaq üçün hələ çox işlər görülməlidir.

***- Belə demək olarmı ki, Zahid Oruc ölkənin birinci şəxsinə daha yaxın deputatdır?***

- Mən hər zaman ölkənin birinci şəxsinə yaxınlıq dərəcəsini sabit əqidəyə malik olmaqda, daşıdığım idealları göz bəbəyi kimi qorumaqda və dövlətə sədaqətdə görmüşəm. Əslində, ranq etibarilə çox yüksək kürsüyə sahib olanları üzüaşağı yumarlayan səbəblərindən biri də özlərinin çox dar məlumatlara yaxın olduğunu düşünüb, hökmdar ədası ilə hərəkət etmək və hakimiyyət içində ayrıca imperiya düzəldərək verdikləri cahil qərarları olub. Elələri heç olmasa, prezident İlham Əliyevin zatından gələn ali və mənəvi zadəganlığına baxmayaraq, "dəmir əl"lə etimadı itirənləri necə cəzalandıra bildiyini də gərək nəzərə alaydılar.

Mənim seçkilərlə bağlı açıqlamalarım Şahdağ yamacındakı hidrometeroloji qurğunun hava axınları əsasında proqnoz verməsinə, yaxud rəsədxana hücrələrindən qalaktikalardakı prosesləri təyin etməyə bənzəyir. Biz hər gün aldığımız xəbərlər əsasında qara, çovğuna, yaxud sərt günəşli havaya görə insanları tanış edənləri dahi saymırıq. Siyasətdə də belədir. Minimal informasiya, regional və beynəlxalq proseslərin məntiqini, milli mənafelər anlayışını bir yerə yığanda proqramlaşdırma üçün tam alqoritmələr hazır olur. Gördüyünüz kimi, dövlətin siyasi elitası ən düzgün qərarları alaraq, seçkiləri Rusiya və Qərbin ayaqları altında qoymadı. Müdaxilənin hansı şəkildə olacağını oturub gözləmək Xalq Cəbhəsi hakimiyyətinin səhvlərini təkrarlamaq demək olardı. Azərbaycanın öz siyasi təqvimini dəyişməsi təhlükəsizlik maraqları ilə birbaşa bağlıydı və indi İrəvanda üz-üzə gələn xalq kütlələri mənim nəzərimdə Bakı üçün ssenariləşdirilən dalğanın bizdən ötüb digər paytaxtlara keçməsidir. Ona görə də bizim işimiz dövlətin zirvəsində dayanan insanlarla müqayisədə daha asan, cəmiyyət üçün görünən səhnədir, lakin ən böyük ehtirama, qibtəyə layiq olanlar məxfi dəhlizlərdən Azərbaycanı uğurla keçirib aparanlardır.

***- Novruz Məmmədovun baş nazir təyinatı, demək olar ki, hamı üçün gözlənilməz oldu. Siz bu qərarı necə dəyərləndirirsiniz? Prezident niyə məhz xarici siyasət məsələləri ilə məşğul olan bir adamı hökumətə rəhbər təyin etdi?***

- Nazirlər Kabinetinin rəhbərinin bir qədər "kənar"dan gətirilməsi qərarı İlham Əliyevin strateq kimi hamıdan fərqli hesablamalara malik olduğunun təsdiqi, şəriksiz qərar sahibi kimi təkbaşına liderliyinin göstəricisi idi. On illər ərzində informasiya məkanında dövr edən namizədlər əllərində olan böyük resurslara - maliyyə və insani kapitala baxmayaraq,11 aprel seçimlərindən daha da güclənmiş çıxan bir sərkərdənin qarşısında iddia ilə çıxış etməyin təhlükəli olduğunu yaxşı başa düşürdülər. Xatırlayırsızsa, 9 aprel müşavirəsində hava limanında Azərbaycanın simasına zərbə vuranlar sərt ittiham olundu və ölkəni biabır edənlərin cəzalandırılacağı vurğulandı. Peşakar təhlilçilər bu xəbərdarlığı seçim tranzitini keçəndən sonra "əhədi kəsilmiş atlar"dan xilasın anonsu kimi qəbul etdilər. Ona görə də Novruz Məmmədovun - siyasi komanda üzvünün hökumətə gətirilməsi bütün kənar ambisiyaların neytrallaşdırılması deməkdir. Ali iradəyə çırpılan iddialar onları fəlakətə sürükləyən vəzifə hərisliyinin qurbanı ola bilərdilər.

***- Bu təyinatı zəruri edən səbəblər haqda da müxtəlif təxminlər səslənir. Sizin bununla bağlı informasiya və ya təxminlərinizi bilmək olarmı?***

- Səbəblər çoxdur. Lakin onlardan ən böyüyü bütün ruhu ilə Novruz Məmmədovun ulu öndər ideallarına bağlı olması, 90-cı illərin qeyri-müəyyənliyində aydın mövqe tutması, heç zaman gözləmə mövqeyinə çəkilməməsi, sadə xalqın və halal zəhmətin içərisindən çıxması idi. O, burjuaziyanın nümayəndəsi deyil. Texnokratiya adı ilə hökuməti biznes-holdinq qaydasında idarə etməklə bütün respublikaya rəhbərlik edən 3-4-cü simaya çevrilmək olmaz. Dünən müxalif camiənin reaksiyasını izləyərkən tez-tez vurğulanan ifadələri eşidəndə bir daha gördüm ki, İŞİD əvvəlcə beyinlərdə yaranır, sonra silahlı meydana çıxır. Novruz Məmmədov haqda "zəif və dişsiz" epitetləri ilə danışanlar yəqin ondan qılınc tələb edir, diktatla idarə olunan sistem arzulayırlar. Tarixin ironiyasına baxın, Cəmil Həsənlinin elmi audotoriyadan siyasi barrikadalara necə atılmasını, hansı simasızlıq yollarından keçib mandata sahib olmasını, sonra geriyə dönməsini, nəhayət, 2013-cü ildə səhranın bəyaz günəşində dublyor kimi meydana itələnməsini və ictimai ekranda gözləri böyüyən, boğazı quruyan simada, qoltuğunda su bardağı hansı potensialla prezidentliyə iddia etməsini baron Mülnhauzenin macərapərəstliyi ilə müqayisə edirlər. Xalqın nəzərində nimdaşlaşan və yalnız keçmişi xatırladan simalar 100 il əvvəlin milli şüurlu böyük istiqlal mücahidləri ilə eyni cərgəyə qoyula bilmədiklərini bir vaxt anlayacaqlar.

Ona görə də Novruz Məmmədov liderindən aldığı böyük etimadı hökumətdə sağlam mühit yaratmağa, qərarların aralıq mərhələlərdə iflic edilməməsi üçün peşəkar aparat heyəti formalaşdırmağa və bütün hakimiyyət qolları ilə sağlam əməkdaşlıq modeli tampağa yönəldəcək. Əslində bunları etmək üçün millətini sevmək birinci şərtdir. Baxın, ölkə rəhbəri ilk qərarını şəhidlərin 90-cı illər savaşındakı haqqını özlərinə qaytarmaqla verdi. Demək, bütün komandaya növbəti dəfə mesaj verildi ki, şəhidlər dövlətin məhək daşıdır, torpaqlarımız uğrunda canlarını verənlər prezidentin ilahi səviyyədə dəyər verdiyi müqəddəs qüvvələrdir. Ona görə də hökumət xalqın içərisinə getməlidir. Görülən yüzlərlə işin yaxşı təqdimatı olmalıdır. İnformasiya məkanına açıqlıq bir nömərli vəzifəyə çevrilməlidir.

***- Baş nazir təyinatından sonra Nazirlər Kabinetinin yenidən formalaşdırılması ilə bağlı qərar verildi. İndiyəqədərki təyinatları necə dəyərləndirirsiniz?***

- Hökumətin yeni tərkibdə formalaşması qaçılmaz idi. Bir qədər geriyə qayıtsaq, əslində prezident kardinal dəyişiliklərə 3 il əvvəl başlamışdı. Ona görə ki, neft bumunun sönməsi böyük və asan pullarla işləyən məmur ordusunun həqiqi potensialını üzə çıxardı. Belə demək olarsa, xarici siyasətdə inkarolunmaz uğurlar qazanan və transmilli dünyanı çəkib bizim regiona gətirən, onlardan təhlükəsizlik sipəri düzəldən dövlət başçısı komandasından aldığı zərbələrə daha dözmək fikrində deyildi. Əgər kəskin addımlar atılmasaydı, indi təsəvvürə gətirmək çətindir ki, nələr baş verərdi. Nəinki seçkilərə onlarla getmək olmazdı, eləcə də artıq dövləti içəridən sarsıdan adamlar Roma imperiyası dövründə olduğu kimi, təkcə cəmiyyətə həqarətlə baxmırdılar, eləcə də komanda yoldaşlarını əzib məhv edəcəklərinə inanan monstr halına gəlmişdilər.Adamları yeyən patrisiyaların əlindən onların plebey saydıqlarını almaq gərək idi. Hər gün daxili və beynəlxalq medianın gündəminə daşınan hakimiyyətiçi intriqalar, böyük korrupusiya əməllərinə dair səs-küylü cinayətlər vahid bir komanda kimi hərəkətə zərbə vurur, vətəndaşın nəzərində dövlətə güvənci əngəlləyir və cinayətkarlıq axınlarına müqavimət göstərmək sahəsində polis orqanlarının rolu danılmazdır. Şübhəsiz, dövlətdə ağırlıqlı bir missiyasını üzərinə götürdüyünə, mənsub olduğu komandada elitar münasibətlər qurduğuna, yaxşı idarəçilik ənənələri formalaşdırdığına görə bir şəxsiyyət kimi Ramil Usubovun obrazının cəmiyyətdə və dövlətin ali mərtəbəsində ehtiram ünvanı olduğu bir daha təsdiqləndi. Vaxtilə ona qarşı qurulan əməliyyatlar və saray inqtriqaları Ramil müəllimə olan inamı sarsıda bilmədi. Ona görə də ümidvarıq ki, bu qərar hökumət içərisində tələbkarlığın, təşəbbüskarlığın və peşəkarlığın arealının genişlənməsinə səbəb olacaq. Ən başılacası, Ramil müəllimin hakimiyyət sifəti fərqli bir strukturun - zəhm və sərtlik tələb edən təmiz məmur obrazını yer-lə-yeksan edirdi. Belədə hətta düşmənlə müharibə qərarı almağın necə riskli olduğunu anlamaq da çətin deyildi. 2015-ci ilin hökuməti ilə müharibə aparmaq təhlükəli idi. Çünki hakimiyyət dəyişikliyi üçün hərbi məğlubiyyət daxili düşmənlər üçün əla ssenari ola bilərdi. İndi tam arxyınlıqa demək olar ki, 2 il əvvəl Ermənistanla baş verən aprel döyüşləri həm də daxildə aparılan təmizlənmənin nəticəsiydi. Allah bilir, Fətullahçı və digər xarici kəşfiyyat emissarlarına satılmış adamlar idarəetmə dəhlizlərində şütüməkdə davam etsəydi, Qarabağda silahlı toqquşmalar başlayanda paytaxtda hansı diversiyalar törənə bilərdi. Ərdoğanın Türkiyədə apardığı total yenilənmə kursu və ən yaxın ətrafından gələn təhlükələri bloklamaq üçün atdığı addımlar cənab İlham Əliyevin 4 naziri vəzifəsindən kənarlaşdırması mahiyyətcə eyniyyət təşkil edirdi və mənə görə yeni hökumət quracağının anonsu sayıla bilərdi. Artıq tam inamla demək olar ki, hökumətini tərkibi son 3 ildə 70 faizə yaxın dəyişib.

***- Dedikləriniz çox ciddi açıqlamalardır...***

- Diqqət etdinizsə, əvvəlcə güc orqanları və müdafiə-təhlükəsizlik strukturlarının rəhbərləri təyin olundu. Deməli, onların fəaliyyət sahəsi həyati əhəmiyyətə malikdir və o ətrafda süni yarışın, kreslo davasının bir gün belə artıq getməsinin ziyanları qaçılmaz olardı. Biz yaxşı bilirik ki, silahlı qüvvələr içərisində dövlətin mənafeyi birinci yerdə durur, daxili işlər və ordu heyəti Ali Baş Komandana yüksək sədaqəti ilə seçilir. Lakin aylarla boş qalan nazir kreslosu daxildə mövqe savaşları üçün cəbhə açır və komandanı zəiflədir. İnqtriqaları vaxtında kəsmək üçün komandanın ağırlıq mərkəzini və əsas nüvəsini formalaşdırmaq lazım idi. Adlara gəldikdə isə, gördüyünüz kimi, Ramil Usubov yenidən daxili işlər naziri vəzifəsinə təyin olundu. Çox mürəkkəb bir regionda, xaricdən ixrac olunan qeyri-sabitlik şəraitində asayişi qorumaq və mütəşəkkil əzəmətli güc orqanının zirvəsində kişiliyin, mərdliyin və liderinə dönməz sədaqətin ünvanı olaraq qalmaqda davam edəcək. Vaxtilə 14-cü Lüdovik belələrini "dövlət adam" adlandırırdı. 2014-cü ilin Maydan inqilabı zamanı Yanukoviçin jandarm qüvvələri və onun rəhbəri bir neçə küçə savaşından sonra siyasi dönüklük göstərərək, Napoleon dövrünün gizli xəfiyyəsi fuşecəsinə tezcə cinahını dəyişmiş və üsyançılarla sövdələməyə gedərək sərkərdəsini satmışdı. Ona görə də sabit və nümunəvi milli nazir hər bir dövlətin üstünlüyüdür. Xüsusilə də Qarabağ dərdlərini ruhundan keçirən, çevrilişlər zaman öndəri ilə bir cərgədə duran və real milli həyatda iştirak edən insanlar hər cür hörmətə layiqdir.

Zakir Həsənova gəlincə, o, Səfər Əbiyevdən qalmış mirası dəyişməyi bacardı və ordu həqiqətən dövlətin legitim gücünə, diplomatik danışıqlarda prezidentin dayağına çevrildi. 100 illərdir bir xalqın silahlı qüvvələrinin formalaşmasına şübhə edən və 1-ci Qarabağ savaşını uduzmuş bir xalqı məğlubiyyət kompleksindən çıxaran adamlar vəzifəni səngərdə qazanırlar. Axı, cəbhə xətti paytaxtdan keçir və Bakıya sığınıb qalan keçmiş nazirin parket üzərindəki qəhrəmanlığından fərqli olaraq, Zakir Həsənov Ali Baş Komandanın orduya təqdim etdiyi ən müasir silahları döyüş bölgələrində alın təri ilə sınaqdan çıxarmağı bacarıb. Gözlərimin önündə həmin qamış hərbi hissələr, ev kotletlərinin bürüdüyü kazarmalar və boyun-boğazları bitə-birəyə müqavimətdən saplağa dönmüş əsgər obrazları indi təminatlı bir nizami birliklərə çevrilibsə, dövlət başçısı Zakir Həsənovun xidmətlərini nəzərə alaraq, onu böyük müharibə komandasına daxil edəcəyi şübhə doğurmurdu.

***- Kənd təsərrüfatı nazirinin ASAN Xidmətin sabiq rəhbəri ilə əvəzlənməsi də sürprizlərdən sayıla bilər. Siz bu barədə nə düşünürsünüz?***

*(Davamı növbəti sayımızda)*

**❑ Elşad PAŞASOT,**
**FOTO: "YM"**



**"Əgər o vaxt kəskin addımlar atılmasaydı, indi təsəvvürə gətirmək çətindir ki, nələr baş verərdi"**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018



# Gecikmiş Novruz bayramı

Zamin HACI
zaminhaci@gmail.com

**"Pəri, Pəri, Pəri! Axund Sadıq Münşinin şikayətinə görə xan bu təsbehi göndərdi ki, sənə nişan verim. Yaxşı bax bu təsbehə. Bu haman təsbehdir ki, iki il bundan qabaq xanın fərmayişinə ağ olan dəyirmançı Mehdini, bax, haman qayadan dərəyə elə tulladı ki, uşaqları heç ölüsünü də tapmadılar. Bu haman təsbehdir ki, Orucəlinin evini yandırdı, uşaqlarını çölə dağıtdı. Aç gözlərini, gör haman təsbehdir, ya yox..."**

***(Mirzə Cəlil, "Xanın təsbehi")***

Bizim ölkənin Ermənistana nisbətdə nə qədər inkişaf eləməsi bu son olaylarda daha açıq göründü. Özünüz diqqət edin, hər iki Qafqaz respublikasında faktiki eyni hadisə baş vermişdir: baş nazir dəyişmişdir. Ermənilər bununla razılaşmaq istəmir, gündə orada boğuşmaq düşür. Bizdə isə sakitlikdir. İnsanlar ictimai-siyasi sabitliyə əməl edir, qurd quzu ilə yanaşı otlayır, it pişiklə multfilmə çəkilir, dovşan kələmlə, Röya Toliklə qucaqlaşır. Müxalifətimiz haqda heç danışmağa dəyməz, onlar ayda bir neçə dəfə ayrılmış ərazidə - stadionda toplaşıb "Qalx, otur", "Oturmayan ermənidir", "İş, çörək, İbrahimbəyovun çaxırları" temasında boyat şüarlar qışqırıb dağılışırlar. Bu da onların ev tapşırığıdır, sağ olsunlar, layiqincə yerinə yetirirlər. O səbəbdən prezident bu dəfəki kabinetin təsdiqi zamanı müxalifət nazirlərinə yenə toxunmadı, onlar öz portfellərini qorudular.

Novruz müəllimin baş nazir qoyulması da olduqca önəmli, modernist, geopolitik, uzaqgörən, qravitasyon hadisədir. İstər-istəməz insanda bahar ovqatı, bayram tərənələri baş qaldırır. Bizim "Gələn Novruzda inşallah İsa bulağının başında YAP bayrağı dalğalanacaqdır" söhbətimiz beləcə gəlib yerini almışdır. Onlar Novruzun gəlişi deyəndə elə bu Novruzun gəlişini nəzərdə tuturdular, millət qanmamışdı. Eybi yoxdur, gec olsun, güc olsun. Qış gözünə barmağım, yaza çıxdı oğlağım. Əkəndə yox, biçəndə yox... Yox, bu nəsə ayrı temanın ata sözü idi, zorla bura girdi, siz oxumayın.

Mən Novruz müəllimin baş nazir qoyulmasına bəzi iqtidar tərəfdarlarının münasibətini oxuyanda açığı təəccübləndim. Örnək üçün, biri deyir: "Novruz Məmmədov hakimiyyətdə ən iddiasız, özünü təblig etməyən, amma fəaliyyəti ilə dövlətə, dövlətin başçısına sədaqətlə xidmət göstərən məmurlardan biridir. Cəmiyyətdə müsbət imici var, korrupsiyada adı heç vaxt hallanmayıb, həmişə qruplaşmaların fövqündə dayanıb". Bu nə deməkdir? Bəyəm bizdə qruplaşmalar, iddialı, lovğa, korrupsiyaya qurşanmış şəxslər də vardır? Ölkəmizdə adı çəkilən mənfi hallar yoxdur, ola da bilməz, çünki biz Ermənistanda yaşamırıq. Üstəlik, iddiasız adamı necə baş nazir qoymaq olar? Bəs o sabah necə işləyəcəkdir? Məncə sözlərimizi seçərkən diqqətli olmalıyıq. Düzgün söz seçə bilməyən neçə insan bu dəqiqə türmədədir.

Yaxud, güc nazirlərinin dəyişilmədən saxlanması onlardan çəkinmək faktoru ilə bağlanır. Bu da uydurmadır, çünki biz yaxın keçmişimizdə belə nazirlərdən birinin idarəsinin yerində turp əkildiyinə canlı şahid olmuşuq. Orda elə canavar generallar tutulub yolundu ki, adları çəkiləndə durnalar lələk salırdı.

Turp demişkən, qabaqlar ASAN-xidmət-də ad çıxartmış gənc kadrın (sözgəlişi, Novruz müəllimin yetmişdən çox yaşı vardır, ancaq onu da Artur müəllimə nisbətdə körpə qəlbli saymaq mümkündür) kənd təsərrüfatı nazirliyinə başçı qoyulması, mədəniyyət hissəsini qopardıb ayrıca Turizm Agentliyinin yaradılması, ağıllı uşaqlar demişkən, gələcək prioritetlərimizi aydın göstərir. Deməli dövlət rəhbərliyi qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatı və turizmin gətirəcəyi gəlirlərə böyük ümid bəsləməkdədir. Başqa yol da yoxdur. Hərçənd, pomidor və xiyar əkən kəndlilərin problemlərinin ASAN-da pasport almağın sadələşdirilməsi qədər asan həll olunacağına o qədər də ümidimiz yoxdur. Çünki burada inhisar ciddidir. Sənəd-sünəd işində isə inhisar qaldırılmışdı, az qala qapısına gerb yapışdıran bütün idarələr pasport verirdilər.

Bütün hallarda son administrativ və struktur islahatlarını YAP iqtidarı tarixində ən müsbətlərindən və kosmetikadan ən uzaqlarından biri saya bilərik. Artıq millətin tanımadığı şəxslər nazir qoyulur - Avropada da camaat öz nazirlərini tanımır.

Qaldı Hacıbala müəllimin dəyişdirilməsi teması, özüm qəsdən buna toxunmadım, çünki bizim media onu çoxdan dəyişdirib, bəlkə min dəfə... Artıq bu söhbətin ləzzəti qaçıbdır. Onun yerinin boş saxlanması da yüngülvari ümid yaradır ki, bəlkə iqtidar Bakı Şəhər İcra Hakimiyyəti adlı mənasız qurumu ümumiyyətlə ləğv edəcəkdir, bütün sivil dünyada olduğu kimi, bizdə də nəhayət şəhər meriyasına seçkilər keçiriləcəkdir, Bakının doğrudan da meri yaranacaqdır. Çünki ən pis seçki belə təyinatdan yaxşıdır. Gözləyək.



# Azərbaycan prezidentinin Türkiyə səfərində əsas hədəf

## Ekspertlər diqqət mərkəzində olacaq əsas məsələlərdən danışdılar

**Prezident İlham Əliyev aprelin 25-də Türkiyəyə səfərə gedəcək. Bu, İlham Əliyevin 11 apreldə keçirilən seçkilərdə qələbəsindən sonra prezident kimi ilk xarici səfəri olacaq. Beləliklə, Azərbaycan prezidenti ənənəvi olaraq yenə də ilk səfərini qardaş ölkəyə edir.**

Bir qədər əvvəl isə Rusiya prezidenti Vladimir Putin 18 mart prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə etmişdi. Ekspertlər hesab edir ki, bütün bunlar Türkiyənin regionda önəmli dövlət olduğu və əhəmiyyətinin getdikcə artmasından irəli gəlir.

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan prezidentinin ilk səfəri Türkiyəyə etməsi ilə Rusiya prezidentinin ilk səfərini Türkiyəyə etməsi arasında oxşar və fərqli məqamlar var: "Bu yaxınlarda Türkiyədə Xarici İşlər Nazirliyində görüş keçirərkən mənə dedilər ki, Azərbaycanın prezidenti İlham Əliyev yenə də ilk səfərini aprelin 25-də Türkiyəyə edəcək. Mənim qardaş ölkəyə səfərimdə məqsədim o idi ki, Azərbaycan-Türkiyə münasibətlərinin indiki vəziyyətini öyrənim. Münasibətlərin necə olmasını ölkə başçısının seçkidən sonra ilk səfərini Türkiyəyə etməsi faktı da ortaya qoyur. Yaxşı ənənə halını alıb ki, Azərbaycanda və Türkiyədə hər prezident seçkisindən sonra ilk səfərlər məhz strateji müttəfiqə, qardaş dövlətə həyata keçirilir. Azərbaycan prezidenti seçildikdən sonra Türkiyəyə, Türkiyə prezidenti seçildikdən sonra Azərbaycana səfər edir. Bu, strateji münasibətlərin xarakterindən irəli gəlir. Həm də bölgədə vəziyyət gərgindir. Azərbaycan Türkiyə ilə siyasi, iqtisadi əlaqələrini çox inkişaf etdirib, əlaqələr yüksək səviyyədədir. Bizim üçün önəmli məsələ Qarabağ məsələsidir. Mən də Türkiyədə olarkən öyrənmək istəyirdim ki, Türkiyə bu məsələnin həllində nə kimi aktivlik göstərə bilər, Rusiyaya təsir edib Moskvanın münaqişənin həllində Ermənistan hakimiyyətinə təsirini sürətləndirməyə sövq edə bilərmi? Düşünürəm ki, dövlət başçısı İlham Əliyevin Ankaraya səfəri zamanı bu məsələyə də xüsusi diqqət yetiriləcək və bu istiqamətdə geniş fikir mübadiləsi aparılacaq".

E.Şahinoğlu qeyd etdi ki, Rusiya prezidentinin seçkidən sonra ilk səfərini Rusiyaya etməsi isə ənənədən irəli gələn addım olmayıb: "Rusiyanın vəziyyəti çox ağırdır. Rusiya Qərb ölkələri tərəfindən sanksiyalar altındadır, prezidentinin seçkidən sonra səfər edəcəyi ölkələrin sayı barmaqla sayılacaq qədərdir. Rusiyanın Türkiyəyə bu saat çox böyük ehtiyacı var. Ona görə də Putin ilk səfərini Türkiyəyə etməyə çox ciddi ehtiyac duydu və yüksək səviyyədə qarşılandı. Etiraf edək ki, Putini bu cür yüksək səviyyədə qarşılayan dövlətlərin sayı elə də çox deyil. Azərbaycan prezidentinin Türkiyəyə səfəri isə ənənə şəklini alıb və bu çox yaxşı haldır. Putinin səfəri ilə Əliyevin səfərinin oxşar cəhətləri isə ondan ibarətdir ki, enerji mövzuları həm bizim üçün əhəmiyyətlidir Türkiyə ilə müzakirə etməyə, həm də Rusiya üçün. İndi əslində bir yarış da gedir. Azərbaycan TAP və TANAP layihələrini reallaşdırmağa çalışır, Rusiya isə Türk axını layihəsini. Mən belə qənaətə gəlmişəm ki, bu məsələdə Türkiyə daha çox Azərbaycana üstünlük verir. Bu barədə ola bilsin ki, prezidentlərin görüşündə də ciddi fikir mübadilə aparılacaq. Türkiyə ilə hərbi əməkdaşlığın dərinləşməsi, silah alınması məsələsi də müzakirə oluna bilər və biz qardaş Türkiyədən silah ala bilərik".

Politoloq Elşən Mustafayev isə bildirdi ki, Azərbaycan üçün Türkiyə həmişə önəmli dövlət olub. Hər seçkidən sonra ilk rəsmi səfər Türkiyəyə, Türkiyədəki seçkilərdən sonra isə ilk rəsmi səfərlər Azərbaycana və Şimali Kipr Türk Cümhuriyyətinə olur. Bu da onu göstərir ki , Azərbaycan da eynilə Türkiyə üçün önəmlidir: "İndiki situasiyada isə Türkiyə regionun əsas söz sahibi olan bir dövlətə çevrilib. Yaxın Şərq problemində göstərdiyi mövqe, qətiyyət və əldə etdiyi nəticələr hal hazırda Türkiyəni regionun lider dövləti edib. Hal-hazırda region dövlətləri , o cümlədən vaxtilə Türkiyə ilə münasibətləri soyuq olan dövlətlər Türkiyə ilə yaxınlaşmağa can atır. Hesab edirəm ki, Türkiyə bu mövqeyə son 2-3 ildə gördüyü işlərlə çatıb. Rusiya prezidentinin seçkidən sonra ilk səfəri Türkiyəyə etməsi də bundan irəli gəlirdi. Azərbaycan dövlət başçısının səfəri isə ənənədən, qardaşlıq münasibətlərindən irəli gəlir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# İran ABŞ-ı hədələdi

**"İran ABŞ prezidenti Donald Trampın nüvə proqramına görə tətbiq edilmiş sanksiyaların 2015-ci il Vyana sazişindən sonra dondurulma müddətini uzatmayacağı təqdirdə, onu bərpa etməyə hazırdır". Virtualaz.org bildirir ki, bunu İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif CBS telekanalına müsahibəsində deyib.**

Onun sözlərinə görə, dünya ictimaiyyəti İranı nüvə sazişinə birtərəfli şəkildə riayət etməyə çağırmamalıdır.

Xatırladaq ki, Tramp mayın 12-də sanksiyaların növbəti müddətə dondurulma barədə qərar qəbul etməlidir. Əks təqdirdə, sanksiyalar avtomatik bərpa olunacaq.

# Ermənistanda ikinci "24 aprel" kabusu - vətəndaş müharibəsi başlayırmı...

## İrəvanda etirazların 10-cu günü Serj Sərkisyan müxalifət liderinin ayağına getdi, istefa tələbini rədd etdi və... narazı xalqı güllələbaranla hədələdi; müxalifət lideri saxlandı; Moskvadan da müxalifətə xəbərdarlıq gəldi...

**Ermənistanda baş nazir Serj Sərkisyanın timsalında Qarabağ klanının əbədi hakimiyyət planlarına qarşı etirazlar 11-ci günə keçib. Nümayişlər, vətəndaş itaətsizliyi paytaxt İrəvanla yanaşı, artıq bütün ölkəni bürüyüb və getdikcə daha mütəşəkkil şəkil almaqdadır. Etiraz hərəkatının lideri, "Vətəndaş Müqaviləsi" partiyasının rəhbəri, qərbyönlü siyasətçi kimi tanınan deputat Nikol Paşinyan aprelin 24-nü - ("qondarma" soyqırımın növbəti ildönüm günü) etiraz hərəkatı üçün pik nöqtə elan edib. Yəni, faktiki, hakim rejimə ultimatum verib.**



İrəvandakı mitinqdə Paşinyan həmçinin, hakimiyyətin dialoq təklifini rədd edərək, onunla yalnız istefanın şərtlərini müzakirə edə biləcəklərini, Serj Sərkisyanın hakimiyyəti itirdiyini bildirib. Paşinyanın elan elədiyi "Yol xəritəsi"nin birinci bəndi də elə S.Sərkisyanın istefası barədədir. Sərksiyan isə vəziyyətdən çıxmaq üçün "Qarabağ kartı"nı ortaya ataraq, xalqı, müxalifəti təhdid edib. Guya o, hakimiyyətdən getsə, Qarabağ da gedəcək.

*****

"Yeni Müsavat" xəbər verir ki, dünən, aprelin 22-də - etirazların 10-cu günü İrəvandakı "Mariott" otelində Serj Sərkisyanla Nikol Paşinyan arasında jurnalistlərin iştirakı ilə ilk görüş baş tutub. Görüş cəmi bir neçə dəqiqə çəkib və gözlənildiyi kimi, nəticəsiz bitib. Paşinyan əsas tələbi baş nazirin diqqətinə çatdıran kimi Sərkisyan buna aqressiv reaksiya verib və onu, etirazçıları 2008-ci il 1 mart qırğını ilə hədələyib.

"Bu, sadəcə, ultimatum, dövləti və qanuni hökuməti şantaj eləməkdir. Siz öz məsuliyyətinizin dərəcəsini anlamırsız. Siz 1 mart hadisələrindən dərs götürməmisiz. Əgər bu tonda danışacaqsızsa, mənə yalnız sizə məsləhət vermək qalır: qanuni müstəviyə, bütövlükdə məntiqi hərəkətlərin sərhədinə qayıdın. Əks halda bütün məsuliyyət sizin üstünüzdə qalacaq", - deyə o, ayağa duraraq, narazı şəkildə görüş yerini tərk edib.

Paşinyan isə jurnalistlərə açıqlamasında S.Sərkisyanı ölkədəki situasiyadan yaxşı baş açmamaqda, məsuliyyət hissini tamamilə itirməkdə, qeyri-adekvat davranışda ittiham edib və xalqı saat 19:00-da (dünən - red.) bu dəfə daha böyük izdihamla İrəvanın mərkəzi meydanına toplaşmağa çağırıb.

*****

Göründüyü kimi, qarşıdurma sürətlə öz finalına doğru gedir. Odur ki, hadisələrin dramatik axarda inkişafını da gözləmək lazım gəlir. Ayrı sözlə, nümayişçilərə qarşı güc tətbiqi, canlı itkilər, ermənilər üçün ikinci "1 mart" və ya "24 aprel" sindromu istisna deyil.

Hələliksə hakim rejim, onun güc strukturları etirazçı kütləyə münasibətdə maksimum dözümlü olmağa çalışır. Bu da ilk baxışda təəccüblü görünür. Hər halda, 10 il öncə - 2008-ci il martın 1-də analoji vəziyyətdə Serj Sərkisyan prezident postunu qorumaq üçün cəmi 1-2 gün dözmüş, sonra da etirazçı kütləni güllələbaran etmək əmri vermişdi. Nəticədə 8 nümayişçi öldürülmüşdü...



Sərkisyanın öz xalqına qarşı qəddarlığı bəllidir. Budəfəki nisbi dözümlülüyün səbəbi də çətin ki, Sərksiyanın "humanistliyi" ilə bağlı olsun. Səbəb ən əvvəl ötən 10 ilin bəzi dərsləri ilə bağlıdır. Məsələ ondadır ki, əgər 10 il öncə, prezidentliyin ilk müddətinə qanla başlayan Serj Sərkisyan müəyyən mənada ermənilər üçün "bağlı boğça" idisə, indi o, Azərbaycanla "4 günlük" aprel savaşını uduzan, ölkəni daha ağır sosial-iqtisadi duruma və səfalətə, daha böyük kütləvi köçə tuş edən biri kimi qəbul olunur. Yəni budəfəki güc tətbiqinin nəticələri, xüsusən də nümayişçilərdən bir neçəsinin qətli Serj və onun mafioz klanına qat-qat baha otura bilər.

Başqa yandan, bu cur sonluq Sərkisyan rejiminin özü haqda Qərbdə son illər yaratmağa çalışdığı "tolerant rəhbər" imicinə, "demokratik imicə", ən əsası, "iki stul"da oturmaq siyasətinə ciddi zərbə olardı. Aydındır ki, Rusiyadan fərqli olaraq, Qərb Ermənistanla əlaqələrdə universal dəyərlərə üstünlük verir. Avropa Birliyi ilə ötən ilin noyabrında imzalanmış və üzv ölkələr tərəfindən hələ ki, ratifikasiya edilməmiş tərəfdaşlıq sazişində də bu tələb qırmızı xəttlə keçir və yalnız onun reallaşması qarşısında Ermənistana hansısa iqtisadi köməklik vəd olunur.

İqtisadi amil isə hakimiyyət üçün heç vaxt olmadığı qədər həyati əhəmiyyət kəsb edir, rejimin mövcudluğunun iki əsas şərtindən biri sayılır (birinci şərt - təhlükəsizlik və siyasi dəstək amili Rusiya ilə bağlıdır). Yəni əslində Sərksiyan rejimi, Qarabağ klanı hazırda məhz girovu olduğu "iki stul"da oturmaq siyasətinin altını çəkir.

Üçüncü - köməkçi səbəb də var. İş ondadır ki, hazırda Ermənistan hökuməti "Minilliyin çağırışı" proqramı çərçivəsində ABŞ-dan da maliyyə yardımı qoparmağa ümid edir. Bu məqsədlə bir neçə gün qabaq baş nazirin müavini təyin edilmiş Vaçe Qabrielyan nümayişlərin getdiyi krtik günlərdə Vaşinqtonda danışıqlar aparır. ABŞ Dövlət Departamenti, Konqres, Dünya Bankı, donorlarla görüşlər keçirir. Faktiki, gələcək hökumət üçün pul axtarır. Amma belə görünür, dəstək və kreditləri donorlar dinc nümayişçilərə qarşı güc tətbiq olunmaması ilə əlaqələndirirlər.

Belə ki, Qabrielyanın sözlərinə görə, həmin görüşlərin iştirakçıları Ermənistandakı etirazların dinc xarakterli olmasını yüksək qiymətləndiriblər. "Onlar deyirlər ki, proseslər dinc xarakterli olmalıdır, hər iki tərəfdən məhdudiyyətlər olmamalı, həmçinin zorakılıq tətbiq edilməməlidir. Qeyd edirlər ki, hökumət, xüsusən də polis yüksək dərəcədə peşəkarlıq göstərir", - deyə o əlavə edib.

*****

Təbii ki, Rusiya da prosesləri diqqətlə izləyir, proseslərə öncəliklə Qərbin planları, pulları, o sırada "məxməri inqilab" kontekstində baxır və "düymə"yə də məhz o zaman basacaq ki, Qərb amili, onun altdan-altdan dəstəklədiyi müxalif qüvvələr "qırmızı xətti" keçsin, Ermənistanda "Gürcüstan ssenarisi" təhlükəsi real olsun.

Kremlin etirazlara müdaxiləsi isə əlbəttə ki, Sərkisyan rejiminin əli ilə ediləcək. Hətta ehtimala görə, yerli polis nümayişçilərlə loyal olsa, bu işi Rusiyanın Ermənistanda, Gümrü hərbi bazası nəzdində təzəcə formalaşdırmağa başladığı xüsusi təyinatlı polis qüvvələrinin köməyi ilə edəcək.

Bu xüsusda Kremlin "danışan dilləri"ndən olan politoloq Aleksandr Duqinin 1 in.am saytına hədə və xəbərdarlıq xarakterli açıqlaması təsadüfi sayıla bilməz (Axar.az). Duqin deyib: "Putindən və indiki Rusiya hakimiyyətindən Ermənistandakı vəziyyətə müdaxilə tələb eləmək gülməlidir. Rusiya və onun hökuməti Ermənistana formal prinsip əsasında münasibət göstərir. Putin Sərkisyanla danışmağa adət edib və o, Putini qane edir. Məhz buna görə də rus lider Sərkisyanı dəstəkləyir. Yerdə qalanlar isə oyundan kənardırlar. Sərkisyana münasibət sizin daxili işinizdir, amma əgər bu qarşıdurmada Rusiyaya qarşı münasibət pozulsa, bu, ilk növbədə ermənilərin özü üçün pis olacaq. Biz belə hadisələrin digər postsovet məkanı ölkələrində necə bitdiyinin şahidi olmuşuq. Rusiyanın müttəfiqi olan ermənilərin heç bir çıxış yolu yoxdur. Putin Sərkisyanı ona görə dəstəkləyir ki, Sərkisyan onun üçün Ermənistanın özüdür. Əgər rejim dəyişikliyi Rusiya ilə münasibətləri qoruyub saxlayacaqsa, bu, Ermənistanın daxili işidir. Ən vacibi xarici güclərin manipulyasiyasından qaçmaqdır. Bu, hər kəs üçün - ermənilər, rusiyalılar və regionun stabilliyi üçün vacibdir. Əks halda manipulyasiya rejim dəyişikliyi ilə bitməyəcək. Bu, dövləti dağıdacaq".

Bu, əslində Ermənistana, xüsusilə qərbyönlü müxalifətə ünvanlı açıq hədə, xəbərdarlıqdır.

*****



Baş verənlərlə bağlı Lragir.am nəşrində getmiş şərh də diqqət çəkir. "Yeni Müsavat"ın məlumatına görə, şərhdə deyilir: "Bu iki faktor - ABŞ-dan maliyyə dəstəyi və Avropa Birliyi ilə saziş məsələsi Ermənistan iqtidarı üçün hazırda ən güclü çəkindirici faktorlardır. Əgər indiki hakimiyyətin başının altından müstəsna olaraq Qərbin təmin elədiyi maliyyə "yastığını" götürsək, hakimiyyət özünün sosial və büdcə öhdəliklərini yerinə yetirə bilməyəcək. Bu isə o deməkdir ki, vətəndaş etirazlarına sosial etirazlar da əlavə olunacaq. Ermənistan hakimiyyəti özünün "komplementar" (oxu: "iki stul"da oturmaq - "YM") siyasətinin girovuna çevrilib: Rusiya ilə siyasi-hərbi ittifaq və Qərblə maliyyə köməyinə, kreditlər almağa imkan verən anlaşmalar".

Müəllifə görə, Rusiya ilə hərbi-siyasi ittifaq uzun illər hakim qüvvəyə xalqa qarşı zorakılıq eləmək və hakimiyyəti mənimsəmək imkanı veribsə, hazırda görünür "maliyyə" yastığı daha böyük əhəmiyyət daşımağa başlayıb. "Yaranmış situasiyada Serj Sərkisyan hansı yola üstünlük verəcək? O, Nikol Paşinyanı dialoqa çağırıb. Ancaq onun özü də başa düşür ki, "girovluqdan" qurtulmağın ən legitim üsulu istefa və hakimiyyəti legitim qaydada, zorakılıqsız təhvil verməkdir" - məqalədə deyilir.

P.S. Qəzet çapa gedərkən xəbər gəldi ki, İrəvanda polis müxalifətin dinc aksiyalarına müdaxilə etməyə başlayıb. Aksiyalara rəhbərlik edən Nikol Paşinyan saxlanılıb. Paşinyanın saxlanması zamanı xüsusi vasitələr tətbiq olunub. Ardında aksiyalara başçılıq edən Mikaelyan da daxil 200-dən çox nümayişçi saxlanılıb. Lakin az sonra Paşinyan Facebook səhifəsindən xalqı küçələrə çıxmağa, polisi isə xalqın tərəfinə keçməyə, "ölməkdə olan rejimin məsuliyyətinə şərik olmamağa" çağırıb, üç deputat saxlansa da, təşəbbüs qrupunun vəziyyətə nəzarət etdiyini bildirib. Respublika Meydanında yenidən S.Sərkisyana "istefa!" tələbi ilə mitinq başlayıb. Ermənistanda vəziyyət gərgin və qeyri-müəyyən olaraq qalırdı...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018



# Düz adam olsaydı, eh...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Yeni baş nazir, yeni komanda, vurulanlar, vuranlar... bunlar gündəmin ana mövzularıdır, bilirəm. Serial izləyirmiş kimi izləyirsiz hamısını. Həyatımıza əlahiddə bir təsiri olmayacağını bilə-bilə həm də. Personaların yox, sistemin önəm daşıdığı məmləkətlərdə əslində bu, o qədər də ciddi maraq doğurmamalıdır. Necə ki, Qərb ölkələrində belədir. Amma bizdə durum fərqlidir: bu kadr dəyişikliklərinin yenə də həyatımıza təsiri olmayacağını bilirik, amma ciddi azartla izləyirik. İçimizin yağları ərisin deyə. “Vurulanlar”ı ləzzətlə izləyək, “Sultan Süleymana qalmayan dünya...” deyib, dəhşət fəlsəfi söhbətlər edək deyə... Bu durum da ancaq bizim kimi hüquqlarının pozulmasından dolayı keyləşmiş, travmalı toplumlarda yaşana bilər.**

Amma mən həftə içi hamımızın qanını qaraldan, eyni zamanda birbaşa həyatımıza təsir edən iki olaydan danışacam. Birincisi, falçı qapısına gedib, təcavüzə uğrayan qızların hekayəsidir. Olay “Yeni Müsavat” səhifələrində partladı, hər kəs dəhşətlə oxudu. Qızlar redaksiyaya gəldi, başlarına gələn bu ağır hadisəni nəql etdilər. Amma mən hadisə gün üzü görən kimi gələn reaksiyalardan daha çox dəhşətə qapıldım. Nəymiş? Yaxşı qız falçı yanına getməzmiş, ağıllı qıza bir dəfə təcavüz edilərsə, ikinci dəfə o qapıya niyə gedirmiş və sair və ilaxır. Məlum oldu ki, bu ölkədə oğruların adətən suçu olmur. Oğurluq bir peşə növüdür, Şabanın filmlərində deyildiyi kimi, oğru namussuz namusludur. Onlar tələ qurmaqda, məsum insanları aldatmaqda sərbəstdilər. Bu, onların haqqıdır. Qoçaqlıq bu tələyə düşməməkdir. Və suçlu olan da bu tələyə düşənlərdir. Nəsə onlar “düz adam” deyillər, nəsə hoqqaları var. Bax belə bir əcaib yanaşma.

Tamam, falçı qapısına getmək cahillik, zəiflik, bir az da maymaqlıq ola bilər. Hesab edə bilərsən ki, universitet tələbəsi olduğun halda belə işin hardasa çətinə düşüb. Ən gülməlisi, sənə imtahanda qiymət yazmayan müəlliminin dilini-ağzını bağlamaq istəyə, ya da sevdiyin oğlana ərə getməyi arzulaya bilərsən. Bəxtinin bağlandığını düşünüb, onun açılması üçün cadu yazdırmaq fikrinə düşə bilərsən... Baxın, “bilərsən” deyə bitirdim cümləni, “etməlisən, bilməlisən” deyə yox. Yəni, bu, ehtimaldır, arzuedilməz ehtimaldır. Amma suç deyil, cinayət deyil, namussuzluq, ailəyə, nəslə başaşağılığı, utanc gətirəcək bir hal isə heç deyil. Belə olsaydı, indi Azərbaycanda dağılmamış ailə qalmazdı. Evinə bərəkət duası yazdırmaq üçün falçıya gedənlərdən tutmuş, ərini evə bağlamaq üçün cadu-piti elətdirənə qədər... nə çox qadınlar var ətrafımızda.

Amma bizimkilər əziləni əzməkdə bir markadılar. Yıxılana bir təpik də biz vuraq məntiqi ilə yola davam etməyə üstünlük verirlər. Zəifi əzməyə nə var ki? “Bacarana can qurban” deyib, şərəfsizin əməlinə içdən-içə haqq qazandırmaq az qala normaya çevrilib. Halbuki pisə, pisliyə qarşı nə qədər çox mücadilə etsək, qınasaq, ona qarşı birləşib, haqq səsimizi qaldırsaq, vəziyyəti bir o qədər tez yoluna qoymuş olacağıq. Amma bizim ellərdə hətta korrupsioner məmura da içdən-içə, gizli bir rəğbətqarışıq həsəd var. Bacarırsa, haqqıdır tipli bir pozitiv yanaşma olur çox vaxt.

İkinci olaya keçim. Amaliya Pənahovanın uğursuz plastik əməliyyatı. Əksər qadınlar qocalmaqdan qorxur. Hələ-hələ bu qadın A.Pənahova kimi cavanlığında çox cazibədar olmuş birisidirsə. Tamam, əməliyyat uğursuz olub, botoksun dozası artıq düşüb, üzünü gərəyindən artıq gərdirib, dərman üzünə düşməyib, kremi yağlı olub.... Hər nə... Bu, bütün insanların dayanmadan onu aşağılamasına, lağlağı obyektinə çevirməsinə əsas verirmi? Ümumiyyətlə, kimin haqqı var ki, yaşlı bir qadına sırf uğursuz plastik əməliyyat keçirdi deyə təhqir yağdırsın? Siz fəsadla nəticələnən bir böyrək əməliyyatından keçmiş və ya əməliyyat nəticəsində şikəst qalmış adama lağ edirsiz, edə bilirsiz? Həkimin xətasıdır deyib, ağ xalatlını suçlayırsız da, düz deyil? O halda aktrisanı usanmadan daşlamaq niyə? Kimə, nəyi sübut etmək istəyirsiz? Burada bir suç varsa, Amaliya xanımın plastik cərrahının, kosmetoloqunundur. Dozanı ayarlaya bilmədiyi, uğursuz nəticə ortaya qoyduğu üçün.

Bu qadın bu yaşında gözəl görünmədiyi üçün sizin nifrətinizi niyə bu qədər qazanıb ki? Sizin cibinizə, yaxud dövlət büdcəsinə girib, əməliyyat etdirib? Yox. Daim gözünüzə gözəl görünmək kimi öhdəlik götürüb? Yenə yox. Üz onun, bədən onun, pul onun. Sizə nə??? Bu qədər təhqir niyə?

Bir susun ya... Lazım olanda danışa bilmirsizsə, lazım olanda da susmağı öyrənin...

# Qızları zorladığı deyilən falçı azadlıqda: “Özümü öldürmək istəyirdim...”

## Zorlandığını iddia edən tələbə qız qaldığı evdən qovuldu; **“Falçı”nın keçmiş arvadı:** “Quran”da nəsə işlər aparırdı"; **Mehriban Zeynalova:** “Bu məsələ çox qarışıqdır...”

**Falçılıqla məşğul olub, 46 qızı zorladığı iddia olunan və özünü Mirseymur kimi tanıdan Ramil Talıbov ötən gün sərbəst buraxılıb. Bu barədə R.Talıbovun özü “Yeni Müsavat”a açıqlamasında bildirdi.**

“Mən ”içəridən" dünən saat 9-da çıxmışam. O qızlara görə mənə 1 sutka verimşdilər. Hazırda nəzarət altındayam. El gözü tərəzidir, gördülər ki, günahım yoxdur. Qanun-qayda var, biz kimik ki? Mən sadəcə fəhlə insanam", - deyə o bildirdi. Onun sözlərinə görə, zorlanma qalmaqalı ilə bağlı intihar etmək istəyib: “Özümü asıb öldürmək istəyirdim. Nə olsun ki, kişiyəm. Məgər kişiyə xələl gəlmir?”

O qeyd edib ki, zorlandığını deyən qızlardan biri Ə.A-nın rəfiqəsidir və onu qətiyyən tanımır: “Artıq onlar barəsində hüquq-mühafizə orqanlarına şikayətlə müraciət etmişəm”. Ramil Talıbov haqqında səslənən digər ittihamlara isə bu cür cavab verdi: “Mən əsla falçılıqla məşğul olmamışam, bu haqda heç bir bilgim yoxdur”.

Xatırladaq ki, aprelin 19-da iki tələbə qız redaksiyamıza müraciət edərək bildirmişdilər ki, özünü Seyid Mirseymur kimi təqdim edən şəxs İnstagram vasitəsi ilə tanış olduğu qızları fala baxmaq adı ilə aldadaraq onlarla intim əlaqədə olub. Adlarını açıqlamadığımız gənc qızların iddialarında o da yer alır ki, “falçı Mirseymur”un əməllərinin qurbanı olan gənc qızların sayı 40-dan çoxdur. Bu mövzu dərc edildikdən sonra hüquq-mühafizə orqanları operativ araşdırmaya başlayıb. Ramil Talıbov məsələ ilə bağlı Yasamal RPİ-nin 29-cu Polis Bölməsi tərəfindən saxlanılmışdı. Bundan sonra mətbuatda özünü zərərçəkmiş kimi təqdim edən Ə.A. ilə Ramil Talıbovun restoranda və digər yerlərdə çəkilən səmimi fotoları yayılıb.

Qeyd edək ki, qızlar redaksiyamıza müraciət edərkən, kimlikləri haqda ətraflı məlumat verib, videogörüntü ilə şikayətlərini bidiriblər. Həmin vaxt redaksiyamız məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına, “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinə məlumat verib.

Qurumun sədri Mehriban Zeynalova “Yeni Müsavat”a məsələnin çox qarışıq olduğunu vurğuladı: “Qızlar gəldiyində mənimlə ayrıca görüşmək imkanı olmamışdı. Onları psixoloqla ələqləndirmişdik. Daha sonra Ə.A. müəyyən məsələlərini həll etmək üçün bizim təşkilata gəlmişdi. Ötən gün isə əlaqə saxlayıb narahatlıqla bildirdi ki, mətbuatda onun şəkilləri yayılıb. Sözün düzü, bu məsələdə narahatçılıq keçirdim. Daha sonra yenidən bizim təşkilata gəldi. Sual verdim ki, ”sənin iddian nədir". Bildirdi ki, həmin şəkillər onun icazəsi olmadan mətbuatda yayılıb. Soruşdum ki, “bəs bu şəkillər sənin deyil?” O da cavabında qeyd etdi ki, şəkillər ona aiddir, sadəcə izin olmadan yayılıb: “Həmin şəkillər bizim münasibətlərimizin yaxşı olan vaxtı çəkilib”. Əlbəttə ki, qızlar şəxsi ittiham ediblər və qarşı tərəf özünü hər hansı şəkildə müdafiə edir. Yeni qız şəkillərin onun olduğunu təkzib etmədi. Yəni, bu məsələ çox qarışıqdır. Psixoloq onlarla cəmi yarım saat söhbət edə bilib. Sonradan onları yenidən psixoloq xidmətindən yararlanmağa dəvət etsək də, gəlmədilər".

Mehriban Zeynalovanın sözlərinə görə, məsələ ictimailəşdikdən sonra tələbə qız Ə.A kirayədə qaldığı evdən qovulub: “Dediyinə görə, hadisə ilə bağlı məsələ ictimailəşdikdən sonra onu tanıyıblar, hazırda qaldığı evdən qovulub, hətta paltarlarını vermirlər. Təşkilatımız tərəfindən ona sığınacaqda yer verilib, bildirmişik ki, müəyyən müddət qədər qala bilər. Sabah isə nənəsinin təşkilatımıza gələcəyini gözləyirik”.



Falçının keçmiş həyat yoldaşı Gülanə Mirzəyeva da “Yeni Müsavat”a danışıb. Onun sözlərinə görə, 2014-cü ildə boşandığı Ramil Talıbov bu məsələdə şər-böhtanın qurbanı olub, günahsızdır: “Bu söhbət hələ martın 4-də ortalıqda ”gəzir". Belə ki, Ə.A. həmin vaxt polisə müraciət edərək zorlandığını iddia edib. Lakin bunu sübut edə bilmədi. O biri qız da onun rəfiqəsidir, öyrədilib. O da deyir ki, birinci dəfə zorlandım, daha sonra ikinci dəfə də başıma bu iş gəldi. Bəs əgər bir dəfə başına bu iş gəlibsə, niyə ikinci dəfə onun evinə gedib? Normal bir insan axı ikinci dəfə o evə getməz. Ə.A. sadəcə, Hikmət adlı oğlanla birləşərək mənim keçmiş ərimdən aybaay pul istəyib. Deyib ki, “sən bu qızın bakirəliyini pozmusan, buna görə də pul verməlisən”. Bəli, Ramillə o qız intim münasibətdə olub, lakin hər ikisinin istəyi ilə bu baş verib".

Gülanə Mirzəyeva keçmiş ərinin falçılıqla məşğul olduğunu təkzib etməyib: “Biz evli olanda belə işlə məşğul olmurdu, bu haqda məlumatım yoxdur. Lakin ara-sıra deyirdi k, ”vaxt gələcək, Allahdan mənə vergi veriləcək, baxıcı olacam". Bu sözü deyəndə ailəlikcə biz ona gülürdük. Mənə deyirdi k, taksi sürücüsü işləyir. Bunu bilirdim... Falçılıq deyəndə ki, o sırf oturub cadu ilə məşğul olmayıb. Sadəcə, “Quran”la məşğul olub. Məsələn, ürəyində nəsə arzu tutursan, “Quran”nı vərəqəliyrsən, Allah-Tala arzun haqda nə buyurursa, qarşına çıxır. Yəni o da bu şəkildə “Quran” açırdı. Amma bütün işini-gücünü atıb bu işlə məşğul olmayıb. Əgər bu zorakılıq məsələsi olsaydı, mən heç qabağa durmazdım".

Gülanə Mirzəyeva keçmiş ərini niyə müdafiə etdiyini isə bu cür açıqlayıb: “Yeri gələndə mənə heç alimenti vermir. Sadəcə, övladımız var, istəmirəm ki, uşağımın atasının adı bu cür hallansın. Şəxsən mən görüntülü olaraq Ramillə danışanda Ə.A. yanında olurdu, hətta ona çay gətirdiyini görmüşəm. Yəni açıq-aşkar onlar sevgili olublar, bu danılmaz faktdır. Sadəcə qız görəndə ki, Ramil ona xəyanət edib, bu məsələni ortaya atıb”.

Gülanə Mirzəyeva keçmiş ərinin niyə özünü Mirseymur kimi tanıtmasını isə belə izah edib: “Rəsmi sənəddə adı Ramil Talıbovdur. Lakin yaxınları onu Mirseymur kimi tanıyır. Bunun səbəbini mən də bilmirəm”.

Qeyd edək ki, qarşı tərəf mətbuata açıqlamalar verdikdən sonra hər iki tələbə qız yenidən redaksiyamıza üz tutub. Ə.A mətbuatda Ramil Talıbovla yayılan şəkillərin ona aid olduğunu etiraf edib: “Restoranda olan şəklimiz hələ zorlanma hadisəsi olmamışdan əvvəl çəkilib. Digər şəkillərdən isə xəbərim yoxdur. Yəni onların nə zaman, hansı şəraitdə çəkildiyini xatırlamıram. Hələ də heç bir hüquq-mühafizə orqanları tərəfindən bizə müraciət olunmayıb, izahatımız alınmayıb, üzləşdirilməmişik. Mətbuatda Ramilin dostu, keçmiş həyat yoldaşı barəmizdə yalan, böhtan səsləndirir, bizi əzməyə çalışırlar. Sadəcə, cinayətkarın cəzasız qalmamasını, məsələnin hüquqi qiymət almasını istəyirik”.

Ə.A. artıq valideyninin də bu məsələdən xəbəri olduğunu və ona dəstək olduqlarını qeyd edib: “Məsələ ictimailəşdikdən sonra kirayədə qaldığım evdən qovulmuşam. Bu səbəbdən sığınacaqda qalmışam. Valideynim məsələndən xəbərdar olub. Sabah (bu gün -red.) təşkilat sədri Mehriban Zeynalova ilə söhbət etməyə gələcək”.

18 yaşlı B.İ. də redaksiyamıza dediklərinin doğru olduğunu vurğulayıb: “Mən zorlanmışam. Yalnız bir dəfə mənim izahatım alınıb. Onda da ”Mirseymur" sorğu-sual olundu dərhal da buraxıldı. Bu dəfə də yalnız onun izahatı alındıqdan sonra sərbəst buraxılıb. Hələ bu günədək bizi heç bir hüquq-mühafizə orqanı axtarmayıb. Bəzən yazırlar ki, guya ki, biz polisdən gizlənirik. Halbuki polisə bizim qaldığımız ünvan da, mobil telefonlarımız da məlumdur. Hüquq-mühafizə orqanlarından xahiş edirəm, bu məsələyə obyektiv baxılsın".

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin mövqeyini öyrənməyə çalışsaq da, dünən bu, bizə müyəssər olmadı.

Mövzunu diqqətdə saxlayacağıq.

❑ **Xalidə Gəray, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018



# Qarabağ üçün yeni dönəm, zaman müharibəyə işləyir?

## Azərbaycan Qarabağ siyasətini cilalayır; işğalçı ölkənin təcridi güclənir; **politoloq:** "Ermənistanı qarşıda daha çətin günlər gözləyir..."

**Keçən həftənin Qarabağ kontekstində də az önəm daşımayan olaylardan biri də Bakıda Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəisi Valeri Gerasimovla NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı, general Körtis Skaparotti arasında reallaşan görüş oldu. Məlumata görə, generallar Cənubi Qafqazdakı durumu da diqqətdə saxlayıblar. Cənubi Qafqaz isə həm də Azərbaycan, Dağlıq Qarabağ məsələsi deməkdir.**

Bu olaydan dolayı heç də az əhəmiyyət kəsb eləməyən başqa bir hadisə NATO komandanının Bakıda Azərbaycanın müdafiə naziri Zakir Həsənovla görüşü oldu. Görüşdə Azərbaycanın hərb naziri ölkəmizin Qarabağ məsələsində mövqeyini bir daha səsləndirib, "Münaqişə Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmalıdır" deyib.

Nazir onu da bildirib ki, Qarabağdakı separatçı rejimin nümayəndələrinin müxtəlif xarici dövlətlərə, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinə səfərləri və həmin ölkələrdə onların qəbul edilməsi münaqişənin nizamlanmasında ikili standartların tətbiq edilməsinə gətirib çıxarır ki, bu da yolverilməzdir. NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirən nazir Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

*****

Generalların Bakı görüşü şübhəsiz ki, Azərbaycanın aktivinə yazılan, onun beynəlxalq imicinə işləyən hadisədir. Üstəlik, belə bir unikal format Qarabağ dərdimizi, haqlı mövqeyimizi dünyaya, ələlxüsus, qlobal güc mərkəzlərinə birbaşa çatdırmaq üçün yeni və etibarlı platforma sayıla bilər. Önəmlisi həmçinin, odur ki, Ermənistan belə imkana, platformaya malik deyil. Gerçəkdən də Azərbaycan Dağlıq Qarabağ məsələsi ilə bağlı mövqeyimizin təbliği üçün bu qəbildən nə qədər çox tribuna qazansa, təbii ki, daha yaxşıdır.

Bu arada işğalçı ölkədə daxili ictimai-siyasi vəziyyət kritik olaraq qalır. Konstitusiya islahatları bəhanəsi ilə prezidentlik kürsüsündən baş nazir vəzifəsində "sıçrayış edən" Serj Sərkisyana qarşı kütləvi etirazlar ikinci həftədir davam edir. Aydındır ki, situasiya uzun müddət belə davam edə bilməz və hansısa məntiqi sonluğa çatmalıdır.

"Bu prosesin nəticəsinin nə olacağını demək çətindir. İstisna deyil ki, güc tətbiq olunandan sonra nümayişlər səngiyəcək. Ancaq problem qalacaq və gec-tez Qarabağ klanına qarşı müxtəlif addımlar atılacaq". Bu sözləri Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib (Axar.az). Politoloq işğalçı ölkədə yaşananları ilk növbədə Ermənistana 20 ildir rəhbərlik edən Qarabağ klanının yanlış siyasəti ilə bağlı olduğunu düşünür.

"Bəzən deyirlər ki, ermənilərin çox uzunmüddətli strategiyası var. Ancaq bu strategiyanı analiz edərkən belə qənaətə gəlmək olar ki, onlar bütün mümkün səhvlərə yol verirlər. Fikir verin, balaca Ermənistan özünə düşmən olaraq 80 milyonluq əhaliyə malik və NATO-da ABŞ-dan sonra ikinci ən böyük hərbi gücə sahib Türkiyəni seçib. İkinci düşmən ölkə isə Azərbaycanı seçib, hansı ki, əhalisi qat-qat Ermənistanınkından çoxdur, iqtisadi potensialı və imkanları olduqca yüksəkdir. Yəni Ermənistan çox böyük strateji səhvlərə yol verir. Bu strategiya tezliklə Ermənistanı böhrana gətirəcək", - deyə o qeyd edib.



Onun sözlərinə görə, Azərbaycan işğalçı ölkənin hazırkı duruma düşməsi üçün güc amillərini yetərincə tətbiq edib: "Söhbət Ermənistanın regional və transregional layihələrdən təcrid edilməsindən, iqtisadi və hərbi təzyiqlərdən gedir. Bu baxımdan onların konfliktdə məğlub olması qaçılmazdır. Rusiyada problemlər üzə çıxandan sonra Moskva iqtisadi baxımdan İrəvanı saxlamaq istəmir. Çünki Ermənistanın iqtisadiyyatı sıfır vəziyyətindədir və birbaşa Rusiyada işləyən adamlara və Rusiyadan gələn yardımlara bağlıdır. Ermənistan gec-tez bu köməkdən tamamilə məhrum olacaq. Ona görə də İrəvan indi Qərbə üz tutub və Rusiyanı iqtisadi baxımdan Qərblə əvəzləmək istəyir. Bir sözlə, qarşıda Ermənistanı çətin günlər gözləyir".

Sabiq diplomat Ermənistan iqtisadi baxımdan iflasa uğramış bir məkan sayır və onun Rusiya ilə əlaqələrində iki probleme diqqət yönəldir: "Bu - iqtisadi və təhlükəsizlik məsələləridir. Rusiya indiki halda Ermənistanı himayə etmək istəmir. Əgər Qərb Ermənistanı iqtisadi baxımdan himayə edərsə, onda Ermənistanın təhlükəsizliyinə kim zəmanət verəcək? İrəvan istəyir ki, Rusiya bir müddət də Ermənistanın təhlükəsizliyini təmin etsin. Bu fonda təhlükəsizlik və hərbi məsələlərdə Rusiyanın qarant missiyasında qalacağını düşünmək olar. Əks təqdirdə Azərbaycana tab gətirə bilməz və bəlkə də Qarabağdan qaçarlar. Hər halda maraqlı bir dövr başlayır".

Politoloqa görə, bir balaca imkan olan kimi, Azərbaycan öz hüquqlarını tam bərpa etmək üçün bundan istifadə edəcək. "Prezident seçkidən sonra ilk bəyanatında işğal olunmuş Azərbaycan torpaqlarından söz açdı. Bu onu göstərir ki, gündəmdə olan əsas məsələ Qarabağ problemidir. Ancaq prosesə nə vaxt start veriləcəyini demək çətindir. Proseslərin gedişatını gözləməliyik. Ən önəmlisi odur ki, artıq Azərbaycan cəmiyyətində Qarabağ məsələsi ilə bağlı ümumi mövqe mövcuddur. Bu, çox ciddi siyasi məsələdir", - deyə o əlavə edib.

*****

Azərbaycan cəmiyyətində Qarabağla bağlı daşlaşmış ümumi mövqe isə belədir ki, işğal rejimi sonsuzadək sürə, münaqişə bir neçə nəsil dəyişməsindən sonraya saxlana bilməz. Onu məhz indiki nəsillər həll eləməlidir.

Bu mənada zaman əslinə qalsa, dinc anlaşmaya, böyük sülhə deyil, müharibəyə işləyir əfsus ki. Düşmən ölkə və ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri bir an öncə bu təhlükəni ciddiyə alsalar, məqbul olar. İlk növbədə də işğalçı Ermənistan üçün. Çünki böyük sülhü əvəzləyəcək böyük müharibə Ermənistanda daşı daş üstdə saxlamayacaq...




## Müdafiə Nazirliyi düşmən tərəfin yalanı haqda: "Ermənistandakı kriminal rejim..."

**"Ermənistanın kriminal hərbi-siyasi rejimi son günlər güclənən kütləvi xalq etirazlarından ictimaiyyətin diqqətini yayındırmaq məqsədilə çirkin, yalan və təxribat xarakterli müxtəlif məlumatlar yayır".**

Musavat.com-un məlumatına görə, bunu nazirlik Ermənistan mətbuatında guya qoşunların təmas xəttinə yaxın ərazilərdə Azərbaycan Ordusunun canlı qüvvə və döyüş texnikasının aktiv hərəkəti barədə yayılan məlumatı şərh edərkən bildirib. Qurum belə iddiaların əsassız olduğunu bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018

# Türkiyə kritik seçki ərəfəsində - ABŞ və Avropanın davranışı necə olacaq?

## Toğrul İsmayıl: "Qərbin Türkiyəyə seçki sürprizi edəcəyini düşünmürəm"

**Türkiyədə iyunun 24-də növbədənkənar prezident və parlament seçkiləri baş tutacaq. Artıq prezident Rəcəb Tayyib Ərdoğan seçki öncəsi daxili və xarici auditoriyaya siyasi mesajlarını verməyə başlayıb.**

Ərdoğanın fikirlərindən belə aydın olur ki, o, seçki ərəfəsində Qərbdən təxribat gözləyir. Belə ki, Ərdoğan özəl televiziya kanalının canlı yayımında növbədənkənar seçkilər qərarından bəhs edərkən Qərbin təhlükə mənbəyi olduğunu dilə gətirib və təhdidin ilk növbədə strateji tərəfdaşlardan gəldiyini vurğulayıb. Dövlət başçısı sözünə davam edərək bildirib: "Şimali Suriyadakı raketlər kimə qarşıdır? ABŞ terror təşkilatlarına bu silahları verir, Suriyanın şimalına 5 min TIR silah göndərib. Biz pulumuzla ABŞ-dan silah ala bilmirik, amma koalisiya qüvvələri, ABŞ bu silahları terror təşkilatlarına havayı verirlər" - deyib.

Türkiyənin baş naziri Binali Yıldırım isə ABŞ Dövlət Departamenti sözçüsünün Türkiyədə keçiriləcək seçkilərlə bağlı dediklərinə sərt reaksiya verib. O, Ankarada jurnalistlər qarşısında verdiyi açıqlamada ABŞ Dövlət Departamentinin sözçüsü Heder Nortun Türkiyədə keçiriləcək seçkilərlə bağlı dediklərinə cavab olaraq, deyib: "Amerikalılar yaxşı olar ki, öz işləri ilə məşğul olsunlar".

Türkiyənin baş naziri həmçinin qeyd edib ki, Amerikada prezident seçkilərinin keçirilməsindən il yarımın keçməsinə baxmayaraq, seçkilərdə saxtakarlıqla bağlı qalmaqal



hələ də davam edir.

Məlumat üçün qeyd edək ki, Heder Nort Türkiyədə fövqəladə vəziyyətin davam etməsinə işarə edərək, deyib ki, belə bir şəraitdə azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi çətindir və buna görə Amerikada nigaranlıq var".

Görünən budur ki, Türkiyə iqtidarının əsas təzyiq gözlədiyi dövlət ABŞ-dır. Bunu yuxarıdakı açıq ifadələrdən də görmək olur. Türkiyənin daxilində isə sabit vəziyyət hökm sürür. Müxalifət partiyaları seçkilərə hazır olduqlarını bildiriblər. Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı isə deyib ki, seçkilərdə partiyanın prezidentliyə namizədi Rəcəb Tayyib Ərdoğandır. Ərdoğan isə çıxışlarının birində söyləyib: "Millətimiz "davam" desə, davam edərik, "tamam" desə hörmət edərik".

Mövcud vəziyyəti "Yeni Müsavat"a açıqlamasında dəyərləndirən Türkiyədə yaşayan politoloq Toğrul İsmayıl bildirdi ki, burada əsas məsələ Suriya ilə bağlıdır: "Həm ABŞ-ın, həm də Avropa Birliyinin təzyiqləri getdikcə artır. Əlbəttə ki, işin başında əsasən Suriya məsələsi dayanır. Suriya faktoru çox ciddi şəkildə buna təsir göstərir. Ancaq məsələ burasındadır ki, seçkilər bir siyasi partiyanın iradəsini və buna getmək istəyini göstərir. Dövlət Bağçalı bunu təsadüfən ortaya atmadı. O, bu məsələlərdə təcrübəlidir. Əslində bundan öncə iki dəfə də erkən seçkilərlə bağlı təklifini irəli sürmüşdü. Doğrudur, o, seçkilərdə çox da uğurlu olmadı. Ancaq bu dəfə ittifaq altında gedirlər. Bu baxımdan bütün planlar və hesablamalar ondan ötrüdür ki, ittifaq seçkidən uğurla çıxsın. Bağçalının namizəd açıqlamasına gəlincə isə bu, əvvəldən olan məsələdir. Yəni ittifaq əvvəlcədən var idi. Referendumdan sonra ittifaq yaranmağa başladı. Buna görə də düşünmürəm ki, Bağçalı tərəfindən də təqdim edilən erkən seçki təsadüfdür. Bu, öncədən planlanmış və düşünülmüş bir işdir. Əlbəttə ki, bu qədər tez yəni iki aydan sonra seçkinin keçirilməsi sürpriz kimi görsənsə də ümumilikdə heç də sürpriz deyildi. Yəni hər kəs, iqtidar, müxalifət, Türkiyə ictimaiyyəti də erkən seçkinin olacağını ehtimal edirdi".

Politoloq Qərbin seçki ərəfəsində Türkiyəyə edə biləcəyi "sürpriz"lər barəsində də danışdı: "Qərbin Türkiyə içərisində hər hansı bir sürpriz edəcəyini düşünmürəm. Burada əsas məsələ iqtisadi vəziyyətlə əlaqədar ola bilər. Yəni Türkiyə üzərinə təzyiqlər edərək, iqtisadi vəziyyəti ağırlaşdırmaq kimi məsələlərin ortaya çıxması mümkündür. Çünki Türkiyədə ən həssas məsələ iqtisadiyyatdır. Belə deyirlər ki, Türkiyənin "yumşaq qarnı" iqtisadiyyatdır. Türkiyə iqtisadiyyatı hər zaman canlı pula ehtiyac duyur. Bunu da Qərb başa düşür və istifadə edə bilər. Fövqəladə vəziyyətin uzadılmasını məsələsini ABŞ Dövlət Departamentinin sözçüsü hallandırıb. Ancaq zənn etmirəm ki, bunu əsas gətirib, təzyiqlər etsinlər. Çünki bütün bunlar Türkiyənin daxili işidir. Bir məsələ də var ki, bundan öncə də Türkiyə fövqəladə vəziyyətdə referendum keçirib. Ancaq təbii ki, Türkiyənin daxili məsələsi olsa da bunu bəhanə edib Türkiyədə seçkilərin demokratik olub-olmaması məsələsini gündəmə gətirə bilərlər".

Politoloq Türkiyənin hərbi əməliyyatları barəsində də fikirlərini bildirdi: "Afrin əməliyyatının son olacağını düşünmürəm. Çünki proses yarımçıq qalıb. Ancaq nələr olacağını öncədən söyləmək də bir mütəxəssis üçün olduqca çətindir. Çünki iqtidar və seçkiyə gedən siyasilər bir çox şeyləri hesablayırlar. Yəni yeni olacaq əməliyyat bu seçkiyə necə təsir edər? Bunun müsbət və ya mənfi təsirləri ilə bağlı geniş məlumatlar bizdə olmasa da, onlarda var. Ona görə də bəzi şeyləri söyləmək bir siyasi şərhçilər üçün olduqca çətindir. Bütün bunlara rəğmən deyə bilərəm ki, Afrin əməliyyatı son deyil. Türkiyə ətrafında terror dövlətinin qurulmasına etiraz edirsə, bu əməliyyatı da tamamilə genişləndirməlidir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Səudiyyə kralının sarayında nə baş verir?

## Saraya "dron hücumu" xəbərinin arxasındakı gerçəklər

**Şənbə günü gecə saatlarında Səudiyyə Ərəbistanında çevriliş xəbərləri dünya mediasına, necə deyərlər, bomba kimi düşdü. Əvvəlcə sosial mediada, ardınca isə dünyanın nüfuzlu agentliklərində ər-Riyadda kral saraylarından birinin ətrafında atışma olduğu xəbərləri yayıldı. Ardınca isə quru qoşunları komandanı Alukas Nepilsin çevriliş etdiyi və onun rəhbərlik etdiyi hərbçilərin saraya daxil olmaq istədiyi zamanı atışma olduğu xəbəri gəldi.**

Sarayın ətrafından çəkilən videolarda isə təhlükəsizlik qüvvələrinə məxsus avtomobillərin sirena siqnalları və davamlı atəş səsləri eşidilirdi. O da bildirildi ki, kral Salman saraydan çıxarılaraq ər-Riyad ətrafındakı hərbi bazalardan birinə aparılıb.

Ancaq bir neçə saatdan sonra təkzib xəbərləri gəlməyə başladı. "Wall Street Journal"ın Dubaydakı müxbiri Marqarita Stansati hadisənin kral sarayı yaxınlığında dron (insansız uçan aparat- K.R.) görünməsi və onun vurulub salınması olduğunu yazıb. Ardınca oxşar açıqlamanı Səudiyyə Ərəbistanı rəsmisi "Reuters" Agentliyinə bildirib. Açıqlamada qeyd olunur ki, təhlükəsizlik qüvvələri ər-Riyadın Huzamə bölgəsində kral saraylarından birinin yaxınlığında dron görüb və atəş açılaraq yerə salınıb.

Eyni zamanda, açıqlamada kral Salman bin Əbdüləzizin hadisə zamanı sarayda olmadığı, ər-Riyada yaxın Diriyə bölgəsindəki sarayında olduğu qeyd edilib. Saray üzərində görünən isə oyuncaq dron olub.



Ancaq baş verən hadisə çevriliş cəhdi və ya sui-qəsd hadisəsi kimi qiymətləndirilib və dünyada ciddi rezonans doğurub. Bunun isə bir neçə səbəbi var. Məsələ ondadır ki, bölgə onsuz da həddən artıq həssas və narahatdır, üstəlik Səudiyyə Ərəbistanı bu cür sui-qəsdlərə həddən artıq uyğun ölkə hesab olunur. Xüsusən də ötən bir ildə bu ölkədə baş verən hadisələr bir neçə dəfə saray daxilində silahlı toqquşmaya və ciddi gərginliklərə səbəb olub. Ötən ilin noyabrında isə aralarında şahzadələrin və nazirlərin də olduğu 200-dən çox nüfuzlu şəxs həbs olunub. Bir şahzadə isə qaçmaq istəyərkən öldürülüb. Bu səbəbdən də ər-Riyaddakı kiçik bir hadisə çox ciddi rezonans doğurub və çevriliş cəhdi kimi qiymətləndirilib.

İkinci tərəfdən, hadisənin özündə xeyli şübhəli məqamlar var. Əlbəttə, Səudiyyə təhlükəsizlik qüvvələri yüksək peşəkarlığı ilə seçilmir. Ancaq kralın özünün içərisində olmadığı onlarla sarayından birinin üzərində və ya yaxınlığında oyuncaq dronun görünməsi nədən bu qədər ajiotaja səbəb olsun? Üstəlik videokadrlardan da görünür ki, atəş səsləri uzun müddət davam edir və havadan uçan bir obyektin atəşə tutulmasından daha çox qarşılıqlı atəş səslərinə bənzəyir. Ən azından belə bir vəziyyətdə polis vurulan dronu nümayiş etdirə bilərdi. Ancaq Səudiyyə rəsmiləri yalnız bir neçə saat keçdikdən sonra qısa açıqlama ilə kifayətləndilər.

Şübhə yaradan daha bir məqam isə hadisədən az sonra krala məxsus GLF4 hospital təyyarəsinin havaya qalxmasıdır. Ancaq təyyarənin kimi apardığı, hara getdiyi məlum olmayıb. Ehtimal olunur ki, sarayda sui-qəsd baş verib və "mühüm" şəxslərdən biri yaralıdır. Hər halda ehtimal ki, bu məsələ ört-basdır edilməyə çalışacaq. Məhz quru qoşunlarından generalın adının hallanması da təsadüfi ola bilməz. Bu ilin əvvəlində ordunun bir çox komandanları istefaya göndərilib. O cümlədən ötən il krallığa ən yaxın namizədlərdən biri olan. Bundan öncəki kral Abdullah bin Əbdüləzizin oğlu Mutaib bin Abdullah vəzifəsindən uzaqlaşdırılıb. Yəni ordu içərisində narazıların olması mümkündür.

Yeri gəlmişkən, hadisədən dərhal sonra Ərəbistandakı internet və sosial şəbəkələrə filtir qoyulub. İlk saatlarda yayılan videoların bir qismi də yığışdırılıb. Səudiyyə Ərəbistanının "müctəhid" adlı sosial şəbəkə fenomeni isə yazıb ki, atışma bir saata qədər davam edib, 7 nəfər ölüb. Ehtimal ki, dron da hücum edənlərə məxsus olub.

Qeyd edək ki, 2032-ci ildə 100 yaşı tamam olacaq Səudiyyə Ərəbistanı krallığı bir dəfə sui-qəsd təcrübəsi yaşayıb. 1961-ci ildə taxta oturan kral Faysal ibn Əbdüləziz 1975-ci ildə sarayında qardaşı oğlu Faysal ibn Musa tərəfindən öldürülüb. Ötən il oktyabr ayında isə Ciddə şəhərində yerləşən Kral sarayına edilən hücum zamanı Kral Qvardiyasının 2 hərbçisi öldürülmüş, 3 nəfər yaralanmışdı.

Hazırda Yaxın Şərqin aparıcı dövlətlərindən biri olan Səudiyyə Ərəbistanında ciddi siyasi və ideoloji islahatlar gedir. 33 yaşlı vəliəhd-şahzadə Məhəmməd bin Salman ölkədə bir sıra radikal islahatlara əl atıb. Qadınlara sürücülük hüququ, idman yarışlarını izləmək haqqı verilib, kinoteatr açılıb. Şahzadənin bu addımlarının radikal dini dairələrin və saraydakı rəqiblərinin sərt təpkisi ilə qarşılanacağını proqnozlaşdıranlar var. Bu səbəbdən də dünya mediası Səudiyyə Ərəbistanında bu cür qəfil xəbərlərə həddən artıq həssas yanaşır. Həm də ortada ciddi səbəblər də var. Çünki ortada ciddi narazılar və qəzəbli şahzadələr var. Şərq isə hər zaman saray daxilində sui-qəsdlər, hərbi çevrilişlərlə xarakterikdir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018

**Son zamanlar ölkə ərazisində havalar qeyri-sabit keçir. Ötən həftə aprel ayı olmasına baxmayaraq bəzi dağlıq rayonlarına qar da yağdı. Bütün bunlar isə kənd təsərrüfatı məhsullarına təsirsiz ötüşə bilməz.**

# Havalar kənd təsərrüfatı üçün əlverişlidirmi?



## Ekspertdən xəbərdarlıq: “Bəzi məhsullarda qıtlıq ola bilər...”

Ekspertlər bildirirlər ki, kənd təsərrüfatı işləri havadan birbaşa olaraq asılıdır. Toxumun səpilməsindən becərmə və yığımadək bütün işlərdə havanın normal olması yüksək məhsuldarlığa təkan verən amildir. Hazırda isə aprel ayı soyuq keçir. Bu, məhsuldarlığa necə təsir edəcək, qıtlıq halları mümkündürmü?

Mütəxəssislərə görə, son zamanlar yağışın çox yağması, taxıl əkinləri üçün faydalıdır. Hazırda taxılın inkişafı boruya çıxma və sünbülləmə fazasının arasıdır. Bu fazada taxılın suya daha çox ehtiyacı olduğu dövrdür. Yağış torpaqda nəmliyin, rütubətin toplanmasına şərait yaradır. Yazlıq bitkilər üçün səpilmiş sahələrə də yağışların olması xeyli dərəcədə müsbət haldır. Yağış cücərtilərin tez alınmasına, bitkilərin inkişafına müsbət təsir göstərir.

Onu da qeyd edək ki, açıqlanan rəsmi rəqəmlərə görə, cari ilin yanvar-fevral aylarında 47,5 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 4,1 min hektar sahədə dənli və dənli paxlalılar, 10,1 min hektar sahədə kartof, 9,6 min hektar sahədə tərəvəz, 23,6 min hektar sahədə çoxillik otlar və 0,1 min hektar sahədə digər bitkilər əkilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu dövrdə diri çəkidə 78,2 min ton ət, 299,8 min ton süd, 281,9 milyon ədəd yumurta, 16,3 min ton tərəvəz istehsal olunub. Ötən ilin yanvar-fevral ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 3,4 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,6 faiz, bitkiçilik məhsullarının istehsalı isə 43,8 faiz artıb.

“Yeni Müsavat”a danışan iqtisadçı Fikrət Yusifov bildirdi ki, daha öncə belə bir hallar yaşanıb ki, havaya görə məhsuldarlıq aşağı olub: “Bölgələrdə harada sərt şaxta olubsa, həmin il məhsuldarlıq aşağı düşüb. Bu cür hallar dəfələrlə baş verib. Bir neçə il öncə Naxçıvanda ağaclar çiçəklənən vaxtı qar düşdü, şaxta oldu. Həmin il bütövlükdə Naxçıvanda meyvə olmadı. Bu il isə daha çox Quba-Xaçmaz zonasına qar yağdı. Orada da bildiyiniz kimi, meyvə bağları çoxdur. Ola bilsin ki, bu, məhsuldarlığa müəyyən qədər təsir edəcək. Ancaq yağışların yağması isə təbii ki, kənd təsərrüfatı üzrə yetişdirilən digər məhsulların, xüsusilə də taxılın inkişafına yaxşı kömək edəcək. Azərbaycanın xaricdən idxal etdiyi məhsulların miqdarında da artım müşahidə etmirəm. Artım bir neçə il bundan öncə hansı səviyyədə idxal edirdiksə, indi də həmin səviyyədədir. Bir sıra məhsullar üzrə yerli məhsullar artıb ki, həmin məhsulların da idxalında azalma var. Çünki yerli məhsullar bazarda tələbatı ödəyə bilir. Hədəflər belədir ki, gələcəkdə meyvə-tərəvəz məhsulları ilə özümüzü təmin edək. Çünki Azərbaycanın yerləşdiyi iqlim qurşaqları imkan verir ki, burada bütün məhsullar yetişdirilsin. Hesab edirəm ki, yaxın bir neçə il ərzində buna çata bilərik. Əsas ərzaq məhsulları ilə yanaşı hesab edirəm ki, ət və ət məhsulları ilə də özümüzü təmin etməmiz mümkündür”.

Ekspert son zamanlar tərəvəz məhsullarındakı qiymət artımı barəsində də danışdı: “Əsasən pomidorun qiymətində artım var ki, bu da daha çox ixracla əlaqədardır. Ötən ilin nəticələrinə görə, ölkəyə qeyri-neft sektorunda istehsal olunan məhsullar sırasında ən çox valyuta gətirən məhz pomidordur. Azərbaycan pomidorunun keyfiyyəti fərqlidir. Keyfiyyətin yüksək olmasını isə qonşu ölkələrdə yaxşı bilirlər. Xüsusilə də böyük bazar olan Rusiyada bunu anlayırlar. Ona görə də istehsalçı da daha çox qazanc əldə etmək məqsədilə ixraca üstünlük verir. Belə olanda daxili bazarda bu məhsula olan tələbat tam ödənilmir. Yeni tələb və təklif arasında elə bir münasibət yaranır ki, burada qiymətlər bahalaşa bilir. Bu məhsulun qıtlığı deyil. Məhsul boldur, sadəcə olaraq onun böyük hissəsi xaricə gedir. İş adamını kimsə məcbur edə bilməz ki, məhsulunu mütləq Azərbaycanda satmalısan. İş adamı sərbəst və azaddır. Necə ki, sərbəst olaraq öz işini qurur, eləcə də məhsulunu bazara çıxarır. Burada başqa addımlar atılmalıdır ki, daxili bazarın tələbatı yerli istehsal hesabına ödənilsin. Yəqin ki, yaxın vaxtlarda hökumət bu məsələnin üzərinə qayıdacaq. Pomidor yetişdirən bir ölkədə bu məhsulun qiyməti çox yuxarıdır. Azərbaycanda bu dəqiqə istixanaların sayı-hesabı yoxdur. Ancaq orada istehsal olunanlar əsasən Rusiyaya gedir”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

## Bakı metrosunda dəhşət: gənc qadın faciəvi şəkildə öldü




**Dünən Bakı metropoliteninin “28 May” stansiyasında sərnişinlərdən biri özünü qatarın altına atıb. Musavat.com unikal.org-a istinadən xəbər verir ki, hadisə təxminən 12:50 radələrində baş verib.**

Belə ki, “İçərişəhər” - “Həzi Aslanov” istiqamətində hərəkət edən 14 saylı qatar “28 May” stansiyasına daxil olarkən 35-40 yaşlarında qadın özünü qatarın altına atıb. O, qatar relsinin üzərinə düşdüyündən başı bədənindən ayrılıb. Az sonra qadının kimliyi məlum olub. Bu, 1976-cı il təvəllüdlü Səfərova Ruhəngiz Canəli qızıdır.

“Bakı Metropoliteni” QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib ki, baş verən hadisə ilə əlaqədar qatarların hərəkətində 10 dəqiqəlik gecikmə yaranıb. Hadisə nəticəsində intihar edən qadının cəsədi qatarın altından çıxarılıb. Meyit aidiyyəti üzrə təhvil verilib.

# Unutqanlıq xəstəliyi - amneziya

## Ondan qaçmaq üçün nə etməli - həkim deyir ki...

**Hər bir insan gündəlik həyatında bu sözləri işlədir. Bütün bunlar unutqanlıq əlamətləridir. Əgər əvvəllər yaşlı nəslin nümayəndələri unutqanlıqdan əziyyət çəkirdilərsə, bu gün gənclər də unutqanlıqdan şikayətlənirlər.**



Unutqanlıq 7-dən 77-yə hər kəsin qarşılaşdığı bir problemdir. Bəzən o qədər də qorxulu hesab etmədiyimiz bu unutqanlıq ən ağır xəstəliyə belə keçə bilər. Axşam.az-ın xəbərinə görə, el arasında “unutqanlıq” deyilən bu xəstəlik tibb elmində “amneziya” və ya “yaddaşın keyfiyyət pozuntusu” adlanır.

**Amneziyanın növləri**

Amneziyanın bir neçə növü var - retroqrat, anteroqrat, epilepsiya, fiksapozon və digər amneziyalar. Retroqrat amneziya düşüncənin pozulması deməkdir. Belə xəstələr həyatlarında baş verən hadisələri tamamilə unudur. Anteroqrat amneziya travma zamanı əmələ gəlir. Belə xəstələr travma aldıqdan sonra keçmişlərini və gündəlik yaşadıqlarını unudurlar. Yaddaşın keyfiyyət pozuntusu sırasına daxil olan epilepsiyaya əsasən yaşlı adamlarda rast gəlinir. Bəzən epilepsiya gənclərdə də müşahidə olunur. Bu zaman həmin insan həyatda baş verməyən hadisələr uydurur. Belə adamlar baş verən bütün pis hadisələri unudurlar, özlərini dünyanın ən xoşbəxt insanı hesab edirlər. Ancaq bu hal get-gedə irəliləyərək, amneziyanın daha ağır formasına keçə bilər.

Psixoterapevt Gülnarə Rəsulovanın sözlərinə görə, bu zaman həmin insana şizofreniya diaqnozu qoyulur: “Poramneziya” da şizofreniyanın növlərindəndir. Belə xəstələr istər-istəməz, özlərindən asılı olmayaraq, yalanlar danışırlar. Bəzi hallarda insanlar nəyisə yadda saxlamaqda çətinlik çəkirlər. Yəni onların yaddaşı zəif olur. Buna “fiksapozin amneziyası” deyilir. Bu amneziyanın yüngül formasıdır. Çünki amneziyanın bu növünü demək olar ki, hamıda müşahidə etmək mümkündür. Buna əsasən “müvəqqəti yaddaş pozğunluğu” da deyilir. Belə yaddaş pozğunluğunun tədricən bərpa olunma ehtimalı var. Ümumiyyətlə, amneziya beyin damarlarının zədələnməsi, beyində olan hüceyrələrin azalması deməkdir".

Unutqanlığın növlərindən olan praqresiv amneziya da bu xəstəliyin ən ağır növlərindəndir. Gülnarə Rəsulovanın sözlərinə görə, praqresiv amneziya daha da irəlilədikdə insan şüurunu tamamilə məhv edir.

**Amneziya insanı ruhi xəstə edir**

Həkimin dediyinə görə, bəzən 6-7 yaşlı bir uşaqda da yaddaş zəifliyi müşahidə olunur: “Yeni II-III sinfə gedən bir uşağın dərsini yadda saxlamama halları baş verir. Məhz bu zaman valideynlər uşağın xəstə olduğu qənaətinə gəlirlər. Bu amneziya deyil. Əgər uşaqda unutqanlıq halı həddən artıq olarsa, bu zaman həkimə müraciət edilməlidir. Belə uşaqlar əsasən doğuş zamanı zədə almış olurlar. Uşaqlarda amneziyanı müalicə etmək daha asandır. Uşaqlarda amneziyanın yaranmasının səbəblərindən biri də onlara efirdə gedən bütün xəbərlərə baxmağa icazə verilməsidir. Uşaq xəbərdən sarsılır və düşünməyə başlayır, özünə qapanır. Bu da amneziyanın yaranmasının təməlidir. Uşağı evdə bağlı saxlamaq, onun bayıra çıxmasına, yaşıdları ilə oynamasına icazə verməmək də yaxşı deyil. Belə uşaqlarda da get-gedə amneziya xəstəliyi yarana bilər”.

Qeyd edək ki, müxtəlif yaş həddində olan insanlarda amneziyaya qarşı aparılan müalicələr də fərqlidir. Uşaqlarda müalicə zamanı istifadə olunan dərmanların miqdarı nisbətən az olur. Psixoterapevtin sözlərinə görə, amneziya irəlilədikdə insanda ruhi xəstəliklər əmələ gətirir: “Xəstələrin çoxu uşaqlıqlarını xatırlamadıqlarından şikayətlənirlər”.

**Amneziyaya tutulmamaq üçün...**

Amneziyadan qurtulmağın əsas yollarından biri gün ərzində çoxlu kalsium qəbul etməkdir. Bundan başqa unutqanlığı olan adamlar quru meyvələr - kişmiş, ərik, qoz, fındıq ləpəsi yeməlidirlər. Gün ərzində içilən qara çay da yaddaşı zəiflədir. Buna görə də, insanların tez-tez yaşıl çay içmələri məsləhətdir. Yaşıl çay təkcə yaddaşı möhkəmləndirmir, digər orqanizmlərə də təsir edir. Düzdü, hər adam yaşıl çay içə bilmir. Ancaq çalışmalıdır ki, heç olmasa gündə bir dəfə də olsa, yaşıl çay içsin və qara çayın miqdarını azaltsın. Təbii bitkilərlə də amneziyadan qorunmaq olar. Gənc yaşdan nanə, cəfəri, bağayarpağı dəmləmələri qəbul edilməsi daha yaxşıdır. Bunlar amneziyanın qarşısını almaqla yanaşı, yaddaşı da möhkəmləndirir. Heç olmasa həftədə bir dəfə bu bitkilərin dəmləməsindən içmək məsləhətdir.

Statistikaya görə, dünyada 65 yaşı olanlar arasında hər 20 insandan 5-i, 90 yaşlılar arasında isə hər 10 adamdan 9-u amneziyadan əziyyət çəkir. Müasir dövrdə isə gənclər arasında hər 10 nəfərdən 7-si unutqanlıqdan şikayətlənir. Ümumiyyətlə, dünyada 100 milyon insan bu xəstəliyin cəngindədir.

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018

# "Novruz Məmmədov nə Rusiyaya, nə də Qərbə bağlı adam kimi tanınır"

**Natiq Miri:** "Bu təyinatı Qərblə Rusiya arasında balans siyasətinin nəticəsi də saymaq olar"



**Prezident İlham Əliyevin məhz Novruz Məmmədovu baş nazir təyin etməsinin kökündə hansı amillərin dayandığı barədə müxtəlif ehtimallar, mülahizələr irəli sürülməkdədir. Bir sıra ekspertlər hesab edirlər ki, prezidentin bu təyinatının səbəbləri sırasında bundan sonrakı dönəm üçün Ermənistanla aparılacaq Dağlıq Qarabağ danışıqları amili də yer ala bilər.**

Bildirilir ki, Ermənistan yeni idarəetmə sisteminə keçiddən sonra işğalçı ölkədə hakimiyyətə baş nazir rəhbərlik edəcək, Ermənistanla danışıqların bəzi raundlarının baş nazirlər səviyyəsində aparılacağı ehtimal olunur. Ona görə də Ermənistan baş nazirinin qarşısına Dağlıq Qarabağ məsələsini, xarici siyasəti daha dərindən bilən mükəmməl bir diplomat baş nazir çıxarmaq lazım gələcəkdi. Novruz Məmmədov uzun illərdir ki, Prezident Administrasiyasında Xarici siyasətə rəhbərlik etmiş şəxsdir. O, Dağlıq Qarabağ məsələsini, danışıqların gedişatını mükəmməl şəkildə bilir. Azərbaycanda vitse-prezidentlik institutunun tətbiqindən sonra, bir iqtisadçının deyil, diplomatın baş nazir təyin olunmasında qeyd olunan məqamın da təsirinin olduğu mümkündür.

Ehtimal ki, vitse-prezidentlərdən biri iqtisadi məsələlərlə məşğul olacaq. Novruz Məmmədov isə baş nazir kimi, daha çox xarici siyasətdə və xüsusən Qarabağ məsələsində ön plana çıxacaq.

Politoloq Natiq Miri isə "Yeni Müsavat"a bildirdi ki, nəzəri olaraq bu mümkündür. Lakin hüquqi baxımdan Azərbaycanda ali icra hakimiyyətinin başçısı prezident sayılır və Azərbaycanda xarici siyasətin müəyyənləşdirilməsi, əsas prioritet sahələrin müəyyənləşdirilməsi məsələsində birbaşa prezident əsas rol oynayır. İdarəetmə strukturu elə qurulub ki, Azərbaycanın həyati məsələsi olan Dağlıq Qarabağ məsələsi ilə bağlı danışıqları ölkə prezidenti və xarici işlər naziri aparır: "O baxımdan Azərbaycanda baş nazirin Dağlıq Qarabağ danışıqları aparması ənənəsi yoxdur. Əgər qarşıdakı dönəmdə bu nəzərdə tutulubsa, o deməkdir ki, Azərbaycanda ilk sayıla bilər. Hər bir halda mən düşünürəm ki, Novruz Məmmədovun baş nazir təyin olunmasının səbəbləri sırasında Dağlıq Qarabağla bağlı Ermənistanla danışıqları məhz baş nazirin aparacağı rol oynamayıb. Bu təyinatın bir növ, Azərbaycanın Qərblə Rusiya arasında balans siyasətinin nəticəsi olaraq ortalığa çıxması ehtimalı daha böyükdür. Novruz Məmmədov nə Rusiyaya bağlı adam kimi, nə də Qərbə bağlı adam kimi tanınır".

Politoloq onu da dedi ki, Azərbaycanda prezident seçkiləri başa çatdıqdan, hökumət formalaşdıqdan, eyni zamanda Ermənistanda da seçkilər dövrü yekunlaşdıqdan sonra Dağlıq Qarabağ məsələsi ilə bağlı danışıqların start götürəcəyi gözlənilirdi: "Lakin danışıqların başlanmasını hazırda Ermənistanda cərəyan edən hadisələr bir qədər yubada bilər. Ermənistanda baş verən hadisələr Qarabağ probleminin çözülməsinə yönəlik çox ciddi və müsbət hadisələrdir. Ona görə ki, hakimiyyətdə olan Serj Sərkisyanın rəhbərlik elədiyi hərbi xunta hakimiyyətdən getməyincə, konfliktin həlli yönündə heç bir müsbət, konstruktiv addımların atılması mümkün deyil. Bu baxımdan hesab edirəm ki, müvəqqəti də olsa Dağlıq Qarabağ problemi ilə bağlı danışıqlar Ermənistanda siyasi çaxnaşmalar bitənə qədər və yeni siyasi sistemin oturuşmasına qədər dayanmış olacaq. Ancaq yeni siyasi qüvvələrin hakimiyyətə gəlməsindən sonra Dağlıq Qarabağ məsələsinin real həlli yönündə çox ciddi danışıqlar başlaya bilər. Danışıqları isə Azərbaycan tərəfindən həmişə olduğu kimi, prezident və xarici işlər naziri aparacaq. Azərbaycan baş nazirinin sadəcə hansısa tədbirlər çərçivəsində, müəyyən epizodlarda danışıqlarda iştirak etməsi istisna deyil".

❑ **Etİbar SEYİDAĞA, "Yenİ Müsavat"**

**ABŞ Konqresinin 102 üzvü prezident Donald Trampa müraciət edib. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, konqresmenlər ABŞ prezidentini qondarma "erməni soyqırımı"nı tanımağa çağırıblar.**

# 102 konqresmen "soyqırımı"nı tanımaq üçün Trampa müraciət etdi - Azərbaycandan reaksiyalar

**Qabil Hüseynli:** "Kəmfürsət Tramp bu məsələdən istifadə etməyə çalışacaq"

**Əhəd Məmmədli:** "ABŞ qondarma soyqırımını tanısa..."

Amerika Erməniləri Milli Komitəsinin məlumatına görə, məktubu Konqresin erməni məsələləri üzrə komitəsinin həmsədrləri Frenk Pallone, Djek Spier, Devid Trot, Devid Valdado, həmçinin Adam Şiff və Qus Bilirakis kimi ermənipərəstlər də imzalayıb. Beləliklə, erməni lobbisi hər il 24 aprel ərəfəsində olduğu kimi, bu il də ABŞ prezidentinə saxta "soyqırmı"nı tanımaq üçün xitab ediblər.

Bu müraciət qardaş Türkiyədə ciddi narahatlıqla qarşılanıb. Prezident olduğu müddətdə sürpriz qərarları ilə daim gündəmdə olan Trampın ölkəsinin Türkiyə ilə gərginliyinin fonunda belə bir qərar verə biləcəyi ehtimalı müzakirə predmetidir.

Sabiq dövlət müşaviri Qabil Hüseynli bu müraciətdən çox ehtiyatlandığını söylədi: "Qorxulu, ermənilərin yolunu aça biləcək bir mühit formalaşmaqdadır. Təəssüflər olsun ki, türk qardaşlarımızın siyasətdə yürütdüyü bəzi nöqsanlar da burada yardımçı olmaqdadır. Amerika Türkiyə üçün hər cür sürprizləri etməyə hazırmış kimi görünür. Çünki bir-birinin ardınca səsləndirilən bəyanatlar həqiqətən də Türkiyəyə qarşı demarşa hazır olan bir dəstənin olmasından xəbər verir. Trampın özü isə ümumiyyətlə, müsəlman dünyasına qarşı çox qəzəbli olan bir insan kimi özünü tanıdıb. Sayca çox konqresmenin Trampa müraciət etməsi tamamilə başqa bir taktikadan xəbər verir. İndiyə qədər konqresmenlər hər hansı bir təklifi qanun layihəsi şəklində hazırlayıb Konqres rəhbərinə təqdim edirdilərsə, indi birbaşa prezidentə müraciət etmələri, zənnimcə, qurulmuş oyuna oxşayır. Sanki əvvəlcədən proseslərin gedişi müzakirə edilib, razılaşdırılıb. Prezidentin də proseslərə qatılması bu müraciətin Konqres və Senatdan asan keçirməyə xidmət etdiyini göstərir. İndiyə qədər Amerika bu məsələyə münasibətdə ehtiyatlı yanaşır, hətta bəzi məqamlarda ədalətli mövqe sərgiləmişdi. Çünki hamıya bəllidir ki, baş verən hadisələr soyqırım deyil. Orada ölənlərin sayını 1.5 milyona qaldırmaqla az qala belə bir soyqırım olduğu görüntüsünü yaratmağa nail olublar. Bu məsələ Amerikada da gündəmi zəbt etsə, daha da populyarlaşacaq. İkinci dünya müharibəsinə qədər ermənilər bu hadisə haqqında demək olar danışmırdılar. Bu müharibədən sonra polşalı yəhudi öz soyqırımları barədə bu kəlməni məşhurlaşdıqdan sonra sanki ermənilər dərin bir yuxudan oyandılar. Bu termini ermənilər yəhudilərdən mənimsəyərək, bütün dünyaya yaymağa müvəffəq oldular. Amma bir fakt qalır ki, ruslarla birləşib türklərə arxadan zərbə vuran ermənilərin bu köç hadisəsi qətiyyən soyqırım deyil. Bu hadisələrə ilk hüquqi qiymət Osmanlı imperiyası verib. O zaman bunu heç türklərdən tələb edən də yox idi. Tramp kəmfürsətdir. Onun əlinə hazırda bir fürsət düşüb. Bu baxımdan qorxulu hadisələrin cərəyan etdiyini düşünürəm. Kəmfürsət Tramp bu məsələdən istifadə etməyə çalışacaq. Bundan çox narahatam. Çünki bu, bizim ortaq məsələmizdir, ermənilərə qarşı mübarizəmizin tərkib hissəsidir. Əgər ermənilər bu məsələni Amerikada qanunvericilik məclisindən keçirsələr, bir çox məsələlərdə bir addım irəli düşmüş olacaqlar".



"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli bildirdi ki, 102 konqresmenin prezidentə müraciəti çox ciddi məsələdir: "İnanmıram ki, Tramp qondarma "erməni soyqırımı"nı tanıyar. Bu müraciət əsasən Türkiyəyə bir hədə, qorxu mesajıdır, şantaj da demək olar. Amma artıq Türkiyə şantaj edilən ölkələrdən deyil. ABŞ qondarma soyqırımı tanısa, birdəfəlik Türkiyəni itirə bilər. Bununla da Türkiyəyə təsir rıçaqlarını itirər. Fikrimcə, ABŞ buna getməz. Sadəcə, erməni kartından da Türkiyəyə qarşı istifadə edirlər. Bu Amerikanın ənənəvi siyasətidir".

❑ **Cavanşİr ABBASLI, "Yenİ Müsavat"**

# Putinin andiçməsi niyə yubanır?

**Elçin Mirzəbəyli:** "Burada hər hansı bir siyasi motiv yoxdur"

**Elşən Mustafayev:** "Mərasimin 9 may bayramından 2 gün öncəyə salınmasını təsadüfi hesab etmirəm"

**Martın 18-də Rusiyada keçirilən prezident seçkilərində qalib gələn Vladimir Putinin andiçmə mərasimi yubanır. Doğrudur, inauqurasiya mərasiminin günü məlumdur, Putin mayın 7-də and içəcək. Lakin onun nə üçün vaxtı bu qədər uzatması marağa səbəb olub.**



Rusiyadan sonra Ermənistanda aprelin 2-də, Azərbaycanda isə 11-də keçirilən prezident seçkilərindən sonra qalib gələn prezidentlərin qısa müddətdə andiçmələrinin fonunda nə üçün şimal qonşumuzda inauqurasiya mərasiminin bu qədər gecikməsi sual yaradır. Bu istiqamətdəki mövqelər birmənalı deyil.

Politoloq Elçin Mirzəbəyli burada siyasi motivlərin olmadığını düşünür: "Rusiyanın federal qanunvericiliyində prezident seçkiləri haqqında qanunun 69-cı maddəsinə uyğun olaraq, Rusiya prezidenti öz vəzifəsinin icrasına Mərkəzi Seçki Komissiyası seçkilərin rəsmi nəticələrini elan etdikdən sonra 30-cu gün sonra başlayır. Yəni Putinin inauqurasiya mərasimi qanunvericiliyin tələblərinə uyğun olaraq mayın 7-də keçiriləcək. Azərbaycanda isə belə bir prosedur yoxdur. Rusiyada inauqurasiya mərasiminin gecikdiyi barədə fikirlər söyləmək doğru deyil. Burada hər hansı bir siyasi motiv yoxdur".

Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev məsələyə bu cür şərh verdi: "Rusiya prezidentlərinin andiçmə mərasimi heç vaxt tez həyata keçirilməyib. Bunların da səbəbləri vacib prosedurların həyata keçirilməsi qrafikləri ilə bağlıdır. Bilirik ki, bu seçkilərdən sonra digər namizədlərdən Seçki Komissiyasına şikayətlər daxil olub. Həmin şikayətlərə baxılma müddətləri, federasiya subyektlərinin çox olması, ümumiyyətlə, seçiciləri əhatə edən ərazilərin böyük olması vaxt alan prosesdir. Hətta şikayətlər çox olmasa belə onlara baxılması qaydaları, prosedurlar qanunda göstərilən müddət ərzində həyata keçirilir. Öncədən də elan olunmuşdu ki, prezidentin andiçmə mərasimi seçkilərin nəticələrinin rəsmi elan olunmasından 30 gün sonra keçiriləcək. Bu, eyni zamanda əvvəlki prezident müddətinin bitməsi vaxtına təsadüf edir. Mərasimin may ayının 7-nə salınması həmin müddəti təxminən 10-12 gün müddətinə uzadıb. Düşünürəm ki, bu elə də böyük gecikmə deyil. Yəqin ki, burada bir sıra faktorlar rol oynayıb. Bu ərəfədə Qərb-Rusiya münasibətlərində gərginliyin pik həddə çatmağı, Suriyada baş verən son bombalamalar da bu gecikmədə müəyyən rol oynaya bilər. Həmçinin gözlənilir ki, çox təmtəraqlı bir andiçmə mərasimi keçirilsin və xaricdən də qonaqlar dəvət edilsin. Mərasimin 9 may bayramından 2 gün öncəyə salınmasını da təsadüfi hesab etmirəm. Andiçmənin vaxtının uzadılmasından kənarda kimsə hansısa məqsədlər üçün istifadə edə bilməz. Bu, imkansız, eyni zamanda mümkünsüzdür".

❑ **Cavanşİr ABBASLI, "Yenİ Müsavat"**

YENİ MÜSAVAT
N 87 (6976) 23 aprel 2018

# Bu yerləri görmədən ölmək olmaz

## Dünyanın 20 ən gözəl qəsəbə və kəndi barədə bilmədiklərimiz

**Yer üzərindəki hər yer bənzərsizdir. Amma bəzi yerlər elə qeyri-adidir ki, onlar barədə yazmaq azdır. Gedib mütləq görmək lazımdır. Xüsusən də yazın gəlişi ilə insanların daha çox gəzintiyə çıxmaq, gözəl yerləri görmək həvəsi artır. Hər kəs hansısa formada yeni, fərqli, cənnət kimi yerlər görmək istəyir. “Yeni Müsavat” həftənin ilk iş günündə sizə ezackar qəsəbələr haqqında arayış hazırlayıb.**















**1- Ölülərin yaşayanlardan çox olduğu qəsəbə**

Kaliforniyanın Colma qəsəbəsində 1000 ölüyə qarşılıq yaşayan insan sayı sadəcə 1-dir. Bunun səbəbi isə yetkililərin San Fransisko yaxınlarındakı bütün məzarları bura daşımasıdır. Qəsəbənin əhalisi daha öncə ancaq məzar işçiləri, çiçəkçilər və cənazə işçilərindən ibarət idi. 1980-lərdə digər peşələrdən olan insanların da bura köçməsi ilə yaşayan insan sayı artdı. Qəsəbənin hazırkı şüarı isə “Colmada həyatda olmaq möhtəşəmdir”.

**2 - Daşdan qəsəbə**

İspanyadakı Setenil de las Bodegas qəsəbəsi basalt daşa insa edildiyinə görə, dünyanın dörd bir tərəfindən turistləri özünə çəkir. Başınızı qaldırdığınız zaman göy üzü yerinə daşlar görəcəyiniz, bir çox küçəsi olan bu qəsəbədə hər an başınıza bir daş düşəcəkmiş kimi hiss edə bilirsiniz. Amma narahat olmayın, o daşlar əsrlərdir orada asılı dayanıb.

**3 - Açıq dənizdəki qəsəbə**

Neft daşları olaraq adlandırılan qəsəbə isə Azərbaycandakı bir sənaye qəsəbəsidir. Açıq dəniz üzərində metaldan hazırlanmış neft yatağı platformalarında yer alan qəsəbədə hazırda yaşayan heç kimsə yoxdur.

**4 - Yadplanetlilər qəsəbəsi**

Dünya miqyasında yadplanetli şəhəri olaraq tanınan Roswellaya iddialara görə, 1947-ci ildə yadplanetlilər enib. Yadplanetlilər mövzulu festivalların keçirildiyi bu qəsəbənin dörd bir tərəfi yadplanetli fiqurları ilə doludur.

**5- Ən mavi qəsəbə**

Morocconun Chefchaouen qəsəbəsində divarlar, qapılar, hətta nərdivanlar da mavi rəngdədir. Bunun səbəbi isə yəhudilərin mavi rəngin müqəddəs olmasına inanmalarıdır. Hazırda burada yəhudilər yaşamır, amma ənənə davam edir.

**6 - Mağara Qəsəbəsi**

Star Wars heyranlarının Luke Skywalkerin evindən xatırlayacağı Matmata, Tunusda hələ də həyatın olduğu yeraltı yerləşim yerlərindən biridir. 1970-ci illərdə bura evlər tikilsə də, yerli camaatın əksəriyyəti ənənəvi evlərdə qalmağı tərcih etdi.

**7 - Sonuncu havayı şəhər**

Slab, evsizlər, təqaüdçülər və gedəcək yeri qalmayan insanların yaşadığı bir Kaliforniya qəsəbəsidir. Buradakı insanlar suyu, işığı və keçərli bir ünvanı olmayan uydurma gecəqondularda yaşamaqdadılar. Sosial xidmət qurumları yoxdur. Bu saydıqlarımızın hamısı çox uyğunsuz görünsə də, burada yaşayanlar öz həyatlarından olduqca razıdılar. Slabberdəki insanlar buranı “Amerikadakı son havayı şəhər” olaraq adlandırır.

**8 - Çinli Avstraliya Qəsəbəsi**

Çinlilər qəsəbələr daxil olmaqla hər şeyin surətini hazırlamaqda olduqca istedadlıdır. Ölkədən çıxmadan Hallstatt Avstraliya qəsəbəsinə baş çəkmək üçün bu qəsəbəni yenidən qurmağa qərar veriblər. Bu arada çinli Hallstatt, avstraliyalı versiyasından çox daha bahalıdır.

**9 - Cəhənnəmə ən çox bənzəyən qəsəbə**

Amerikanın Miçiqan ştatı “Cəhənnəm”i tapa biləcəyiniz bir yerdir. Adın mahiyyətinin hardan qaynaqlandığını tam olaraq bilinməməklə yanaşı, qəsəbənin yerləri onun şeytani görüntüsündən məmnundular. Qəsəbəyə gələn turistlər “Cəhənnəmə xoş gəldiniz” yazılı lövhə ilə şəkil çəkdirməyə çox həvəslidilər. Hədiyyəlik əşya satan mağazalar isə Cəhənnəmin 1 kvadrat metrlik “kupça”sını 6.66 dollara satır.

**10 - İki ölkə arasında sıxılıb qalan qəsəbə**

Büsingen am Hochrhein, İsveçrədə yerləşən, iqtisadi olaraq İsveçrəyə, idarəçilik baxımdan isə Almaniyaya aid olan bir yerdir. Bu qəsəbədə eyni zamanda İsveçrə frankını pul vahidi olaraq istifadə edən tək Alman qəsəbəsi olma özəlliyinə sahibdir.

**11- Bu qəsəbədə ölə bilməzsiniz**

Longyearbyen, Svalbard qəsəbəsi rəsmi olaraq ölə bilməyəcəyiniz yerlərdən biridir. Qəsəbədə bir qəbiristanlıq var, amma 70 ildir heç istifadə edilməyib. Bunun səbəbi isə cansız bədənlərin çürüməsinə mane olan soyuq havadır.

**12 - Siçovulların kral kimi bəsləndiyi yer**

Hindistanın ən böyük əyaləti olan Racəstanın şimalında yerləşən kasıb Deshnoke qəsəbəsi Karni Mata məbədi sahəsində hər il dünyanın dörd bir yanından minlərlə turisti qəbul edir. Çünki bu məbəddə təxminən 20 minə yaxın siçovul yaşayır. Bir çox insanın qorxduğu, hətta baxmaqdan belə iyrəndiyi siçovullar bu məbəddə “kral” kimi bəslənilir. Çünki bölgədə yaşayan insanların inanclarına görə, siçovullar müqəddəs ruhları təmsil edirlər. Öləndən sonra yenidən dünyaya siçovul olaraq gələcəklərinə inanan insanlar ölən atalarının ruhlarının buradakı siçovullarda olduğuna inanırlar. Bölgədə yaşayan insanlar tez-tez bu məbədi “ziyarət” edir və buradakı siçovullara yemək gətirirlər.

Turistlər tərəfindən də çox sıx-sıx “ziyarət” olunan məbəddə gəzərkən çox ehtiyatlı olmaq lazımdır. Çünki məbədin hər tərəfi siçovullarla doludur. Buradakı siçovulları bilərəkdən və ya bilməyərəkdən öldürmək ağır cinayətdir. Siçovullarla birlikdə məbəddə bir neçə insan da yaşayır.

**13 - Kambocada, Tonlesap gölü sahilindəki Kompong Luong kəndi**

Bu kəndi dünyada “Üzən kənd” adlandırırlar. Kəndin bu cür adlandırılmasının səbəbi isə burada bütün evlərin suyun içində yerləşməsidir. Sahildən bir neçə yüz metr kənarda salınmış kənd özünəməxsus gözəlliyi, qeyri-adiliyi ilə seçilir. Sakinlər də elə bu gözəllikdən gələn qazancla dolanırlar. Bura üz tutan qonaqlar, turistlər 1 saat üçün 7 dollar ödəyərək mühərrikli qayıqda gəzməklə Kompong Luongun maraqlı yerləri, o cümlədən suyun içindəki daxmalarla, insanların yaşayış tərzi ilə tanış olurlar. Yerli sakinlər “baranq-baranq”(bu, Kamboca dilində əcnəbi deməkdir) adlandırdıqları turistləri qayıqda gəzdirməklə pul qazanır, ailələrini dolandırırlar. Suyun içindəki evləri görməyə gedən turistlər buradakı kafedə nahar, mağazada alış-veriş edə bilərlər.

**14 - Namibiyada yerləşən Kolmanskop qəsəbəsi**

Bir vaxtlar dünyanın ən zəngin yeri olub. Cənub yarımkürəsində ilk rentgen aparatı buradakı xəstəxanada istifadə olunub. İndi isə qəsəbə sanki səhrada basdırılıb.

**15 - Siland adlı ölkə**

Britaniyalı leytenant Roy Beyts tərəfindən neft platformasının üzərində qurulub. İngiltərə ordusunun keçmiş leytenantı Roy Beyts 1967-ci ildə Böyük Britaniyanın yaxınlığındakı neft platformalarından birini zəbt edərək, orada “Siland” adı verdiyi ölkəsini qurub. Britaniya Kral Donanması leytenantı adadan uzaqlaşdırmağa səy göstərsə də platformadan açılan xəbərdarlıq atəşinə məruz qalan donanmanın əsgərlərinin cəhdi uğursuzluqla nəticələnib. Sonrada həbs edilən leytenantın məhkəmə işində hakimlər hadisənin İngiltərə sərhədlərindən kənarda baş verdiyini bildirərək, Roy Beytsi sərbəst buraxılması barədə hökm çıxarırlar. 1974-cü ildə Britaniyanın Konstitusiya məhkəməsinə müraciət edən leytenant dövlətin simvolu olan bayraq, milli marş və Siland dollarının qəbul edilməsinə nail olur. Özünü Siland knyazı adlandıran keçmiş hərbçinin ölkəsi heç bir dövlət tərəfindən tanınmayıb.

Qeyd edək ki, hazırda Silənd dünyanın ən qeyri-adi dövlətidir. Buranın ərazisi bircə neft platformasından ibarətdir. Cəmi 27 vətəndaşı var.

**16 - Qazaxıstanın Kalaçi kəndi**

Kənddə yaşayan sakinlərin tutulduğu xəstəlik elm adamlarını heyrətləndirir. Bu kəndin sakinləri 4 ildir ki, aşırı yuxu və cinsi istəkdən şikayətlidir. 2012-ci ildə başlanan və 160 insanın həyatına sirayət edən xəstəliyə “yuxu dəliyi” adı verilib. Rusiya ilə Qazaxıstanın sərhədində yerləşən kənddəki insanlar aşırı yuxu və cinsi istəklərlə bərabər, müəyyən vaxtlarda özlərindən də gedirlərmiş.

Kiçik kəndi dünyanın ən qəribə məkanlarından birinə çevirən xəstəliyin səbəbini öyrənmək mümkün olub. Belə ki, həmin kəndin ərazisində yerləşən və artıq istifadə olunmayan uran mədəni insanların səhhətinə ciddi təsir edirmiş. Bir zamanlar bu ərazidə tikilən mədən artıq neçə ildir ki, insanlar üçün əsl kabusa dönüb.

**17 - Byovron-an-Oj, Aşağı Normandiya, Fransa**

Bu kənddəki, demək olar ki, bütün evlər 17-ci əsrin sonunda tikilib. Burada çox az sayda ev var və ümumilikdə 200-dən çox sakin yaşayır. Bütün kəndi gəzmək üçün 15-20 dəqiqə kifayət edir, ancaq qədim normand stilində tikilən binalara sonsuza qədər baxmaq olar.

**18 - Venqen, Bern Alpları, İsveçrə**

Kənd hələ 19-cu əsrin sonundan turistlərin sevimlisi olub. O, 1300 metr hündürlükdə yerləşir və buna görə də qış mövsümündə xizək kurortuna çevrilir. 100 il bundan öncə burada avtomobillər qadağan olunmuşdu. Hər il avqust ayında kənddə “Mendelson adına musiqi həftəsi” keçir, qış mövsümündən Pasxaya qədər burada məşhur Venqen marionetkalar teatrını görmək olar.

**19 - Zaanse-Sxans, Niderland**

Bu kənd-muzey Amsterdamdan 20 dəqiqəlik yolda yerləşir. Zaanse-Sxans 17-ci əsrin Hollandiyasını xatırladır. Burada flamand evcikləri, farfor bəzəyən, taxta klomp-ayaqqabılar hazırlayan ustaları, çəmənlikdə otlayan qoyunları görmək olar. Kənddə 30 yaşayış evi və indiyə qədər aktiv istifadə olunan 10 külək dəyirmanı var.

**20 - Portmerion, Quinet, Uels, Böyük Britaniya**

Bu kəndlər Duirid çayının yaxınlığında yerləşir. Evlərin əksəriyyəti “folli” adlanır. Kəndə ziyarət 7,5 funt sterlinqə başa gəlir. 2012-ci ildən hər il burada “Festival №6” musiqi və incəsənət festivalı keçirilir. Gəzməli-görməli yerlərin siyahısında 1960-cı ilə aid ”Herkules", ağacdan “Köpükdə köpək” heykəllərini, “Hündür ev” - Müqəddəs Pyotr və qara qoyun, “Panteon”, zəng qülləsi, Yapon nohuru və mərkəzi meydan var.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
Son səhifə
N 87 (6976) 23 aprel 2018



# 10 illik işıq borcu yığıldı, indi 65,5 min avro ödəməlidir

**İtaliyanın Latsio bölgəsinin sakini elektrik enerjisi xərclərinə görə 65,5 min avro ödəyib. Bu barədə lenta.ru saytı xəbər verib. Bu rəqəm vətəndaşın son 10 illik işıq borclarını özündə əks etdirir. Fotoqraf Daniele Kametti Aspri iddia edir ki, o, borcu ödəmədiyini inkar edir və deyir ki, hər ay qəbzlər alıb.**

Aspri ona belə iri miqdarda hesabın gəlməsini anlamır. Dediyinə görə, qəbzi alanda şok keçirib və həmin vaxtdan etibarən onda hipertoniya tutmaları baş verir: “Mən məyusam. Bir anın içində mənim və ailəmin həyatı kabusa döndü”. Ona bu hesabları göndərən Asea elektrokampaniyası isə israr edir ki, borcla bağlı hesablamaları doğrudur.

Cəmiyyətin bu məsələyə diqqətini cəlb etmək üçün o, öz Facebook səhifəsində bir şəkil dərc edib. Həmin şəkildə italyan əlində iri bir qəbz kağızı tutur. Bu, məlum qəbzin böyük bir vərəqə köçürülmüş versiyasıdır. Kişinin sosial şəbəkədəki dostları bu qəbz olayını dəhşətli hesab edir və haqsızlığa qarşı mübarizənin vacibliyini vurğulayırlar. Hər kəs hesab edir ki, bu, böyük bir texniki səhvdir. İnternet istifadəçiləri ona eyni zamanda vəkil tutmaq və heç nə ödəməməyi də məsləhət görüblər.

# Həkim qəbuluna düşmək istədi, 7 il sonraya vaxt verdilər

**Avstraliyada yaşayan təqaüdçü mütəxəssislər konsultasiya üçün 7 il gözləməlidirlər. Kabulyutyura xəstəxanasında 75 yaşlı Maykl Simmonsa bildiriblər ki, qastroskopiya ilə bağlı konsultasiyaya girmək üçün 6 ildən 7 ilə qədər gözləməlidir. Simmons xəstəxanaya bir neçə ay əvvəl gətirilib. Gözləmə kağızında yazılıb ki, mütəxəssislə görüşün dəqiq vaxtını 4 həftə əvvəlcədən bildirəcəklər. Təqaüdçü zəng edərək dəqiq vaxtı öyrənmək istəyəndə başgicəlləndirici vaxt deyiblər.**



Səhiyyə xidmətindən də faktı təsdiqləyiblər. “Qastroskopiya proseduruna tələbat yüksəkdir. Biz hazırda pasientlərin gözləmə müddətini azaltmağa çalışırıq. Konsultasiyalar ambulator şəkildə həyata keçirilir”, - səhiyyə xidmətinin icraçı direktoru Malkolm Stamp deyib.

O, həmçinin etiraf edib ki, bəzən xəstələr həddən artıq çox gözləmək məcburiyyətində qalırlar. 75 yaşlı təqaüdçü Maykl Simmons isə Avstraliyanın səhiyyə sistemi ilə mübarizə aparmağa hazırlaşır. O hesab edir ki, bu ölkənin səhiyyə sistemi üçüncü dünya ölkələrindəkindən də pis vəziyyətdədir.

# Zooparkda heyvanı daşla öldürdülər



**Çinin Fuçjou şəhərindəki zooparkda ziyarətçilər bir kenqurunu öldürüb, digərini isə yaralayıb. Buna səbəb onların heyvanlara daş və ağır əşyalar atması olub. İnsident iki ay bundan öncə baş versə də, bununla bağlı xəbər indi yayılıb. 28 fevralda 12 yaşlı kenquru balası ona ağır daş atandan sonra ayağından yaralanıb. Onun zədələnmiş ayağı üzərində işləyiblər və dərmanlarla daxili inyeksiya ediblər, amma bir neçə gün sonra ölüb.**

Daha sonradan aydınlaşıb ki, heyvanın ölümünə dəyən ağır daş nəticəsində böyrəyinin partlaması səbəb olub. Bu da son nəticədə daxili qanaxmaya səbəb olub. Bir neçə həftə keçəndən sonra bənzər situasiya baş verib. 5 yaşlı kenqurunu da daşla yaralayıblar, amma o, yüngül yaralarla qurtula bilib.

“China Daily” nəşri yazır ki, zoopark əməkdaşlarından birinin dediyinə görə, bu heyvanlar səhər saat 8-dən axşam saat 10-a qədər aktiv həyat tərzi keçirirlər. Digər vaxtlarda isə onlar ağac kölgəsində dincəlirlər. Qadağa lövhələrinə baxmayaraq, ziyarətçilər hərdən ona bulkalar atıblar, bir çox hallarda isə daşlarla zədələyiblər. Zoopark işçiləri qəfəslərin ətrafını daşlardan təmizlədikdən sonra insanlar zoopark ərazisində daha ağır daşlar axtarmağa çalışıblar.





**QOÇ** - Bu təqvimi təsadüflərlə başa vuracaqsınız. Gözləmədiyiniz adamlarla, ağlınıza gətirmədiyiniz xəbərlərlə rastlaşacaqsınız. Axşama doğru sürprizlər də mümkündür. Şəxsi büdcənizlə bağlı narahat olmayın.


**BUĞA** - Maliyyə problemləriniz olsa da, bu, işgüzarlığınızı azaltmayacaq. Hətta ola bilsin ki, saat 15-18 arası maraqlı və perspektivli təklif də alasınız. Özünüzü buna hazırlayın.


**ƏKİZLƏR** - Ulduzlar kənar təsirlərdən uzaq olmağı, yalnız öz qərarınızla addım atmağı tövsiyə edir. Bu gün spirtli içki içmək, qarğış və qeybət etmək, o cümlədən yalan vədlər vermək yolverilməzdir.


**XƏRÇƏNG** - Hər mənada düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizdən xəbər verəcək. Əlbəttə ki, bunun üçün özünüz də canfəşanlıq göstərməlisiniz. Sövdələşmələrdə aktiv olun.


**ŞİR** - Səhhətinizin qayğısına qala bilsəniz, gün ərzində başqa narahatçılığınız olmayacaq. Nahardan sonra sevindirici xəbərlər və ya ürəyinizcə olan təkliflər alacağınıza şübhə etməyin.


**QIZ** - Ulduzlar xəbər verir ki, bu təqvim şəxsi işlərinizdə yeni mərhələnin baş qaldırmasına səbəb ola bilər. Bunun üçün müsahiblərinizə diqqətlə qulaq asmalı, düz seçim etməlisiniz.


**TƏRƏZİ** - O qədər də ürəkaçan ərəfə deyil. İlk növbədə səhhətinizə diqqət yetirin. Çünki ulduzlar sağlıq durumunuzun aşağı səviyyəyə düşəcəyini bəyan edir. Riskdən də uzaq olun.


**ƏQRƏB** - Saat 16-ya qədər bütün vacib işlərinizi yekunlaşdırmağa çalışın. Həmin ərəfədə şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Sonrakı müddəti isə daha çox istirahətə həsr edin.


**OXATAN** - Sizin üçün müəyyən mənada mistik gündür. Daxili sıxıntılarınızı və ruhi zəifliyinizi aradan qaldırmaq üçün müqəddəs ziyarətgahlarımıza üz tutun. Dini qaydaları pozmayın.


**OĞLAQ** - Neçə vaxtdan bəri daxilinizdə mövcud olan gərginlik səngimədiyindən naharaqədərki ovqatınız aşağı səviyyədə ola bilər. Sonrakı saatlarda isə sürprizlər gözlənilir.


**SUTÖKƏN** - Astroloji göstəricilər yalnız səfər və qonaqlıqlar üçün səmərəli vaxt olduğunu bəyan edir. Digər məsələlərdə, xüsusən də fəaliyyət zəminində isə proseslər o qədər də uğurlu olmayacaq.


**BALIQLAR** - Kifayət qədər xoş məqamlar yaşayacaqsınız. Bir tərəfdən yeni işgüzar əlaqələr, digər tərəfdənsə ətrafınızdakıların sizə bəraət qazandırması ovqatınızı yüksəldəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bunlar danışan siqaretlərdir

**Televiziya reklamları, qəzet elanları və siqaret qutularının üzərindəki xəbərdarlıq yazılarından sonra danışan siqaret qutuları hazırlanıb. İsveçli alimlər siqaret aludəçilərini siqaretdən uzaqlaşdırmaq üçün siqaret qutularının üzərinə qorxulu şəkillər qoymuşdular. Qorxulu şəkillərdən sonra indi də siqaretin zərərləri haqqında danışan yeni siqaret qutuları hazırlayıblar.**



Yeni siqaret qutuları etdikləri xəbərdarlıqlara görə iki qrupa bölünüblər. Bəziləri siqaretin sonsuzluq yaratdığını deyir. Bəzi qutular isə siqareti tərgitmək istəyənlər üçün psixoloq nömrəsi bildirir. Yeni hazırlanmış qutular yaşı 16-24 arasında dəyişən yüzlərlə qadın üzərində sınaqdan keçirilib. Nəticədə məlum olub ki, uşaq dünyaya gətirmək istəyən qadınlar xəbərdarlıqları eşitdikdən sonra siqaretdən vaz keçirlər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dəqiqə” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100